www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 dekabr 2018-ci il Çərşənbə № 272 (7161) Qiyməti 60 qəpik

**Xəbər**

## Əhalimiz Gürcüstandan 2, Ermənistandan isə 3 dəfə çoxdur

yazısı səh.10-da

**Gündəm**

### Milli Məclisdə gərgin müzakirələr



Deputatlar şəhidlərin və dövlət adamlarının təhqir olunmasına sərt mövqe bildirdi; "Ümumi təhsil haqqında" qanun layihəsi də ciddi müzakirələrə səbəb oldu

yazısı səh.3-də

### Ermənistanın yeni rəhbərliyinin Qarabağ dilemması

yazısı səh.11-də

### Hökumətdə "ASAN"laşdırma prosesi: "kiçik padşahlar" taxtdan salınır

yazısı səh.4-də

### Müxalifət sarı jilet geyinəcəkmi-partiya sədrlərindən maraqlı açıqlamalar

yazısı səh.5-də

### Güllədkeçirməz şüşənin 1 kvadratını Bakıda 550 manata satırlar

yazısı səh.12-də

### Mübariz İbrahimov və Ramil Səfərova qatil deyənlərin beyinlərini belə yuyurlar - sensasion təfərrüat

yazısı səh.9-da

### Parlamentin qalmaqallı 2015-ci il tərkibi

yazısı səh.6-da

### Müsavat, AXCP və REAL "Müxalifətin zirvəsi"ndə olmayacaq

yazısı səh.6-da

### ABŞ embarqoları İran aviasiyasının "qanadını" qırdı

yazısı səh.13-də

### Zamirə Hacıyevanın "ilişməsi" Londona pul qaçıran korrupsionerlərin yuxusunu ərşə çəkib

yazısı səh.14-də

### Suyumuza bulaşan mikroblar - onlardan necə qorunaq...

yazısı səh.15-də

# ERMƏNİSTANDA MÜHARİBƏ XOFU - "AZƏRBAYCAN BİR YAYLIM ATƏŞİ İLƏ..."

**Moskvadan İrəvana daha bir tələb gəldi:** Ermənistan öz ərazisində üçüncü dövlətin hərbi mövcudluğundan imtina barədə öhdəlik götürməlidir; **erməni hərbi ekspertləri və KİV-ləri isə SOS siqnalları verir:** "Bunlar pis əlamətlərdir..."




yazısı səh.8-də

## 2018-də vəzifə kürsüsünü itirənlər-nazirdən icra başçısınadək...

Yola saldığımız il iqtidar komandasında ciddi yenilənmələrlə yadda qaldı

yazısı səh.5-də



### Hafiz Hacıyev bəzi məmurların sürətlə varlanmasının sirrini açdı

yazısı səh.12-də



### Mikayıl Cabbarovun bir ili - ekspertlərin şərhi

yazısı səh.4-də



Emil Məmmədov

### Vidadi İsgəndərlinin ağır ittihamlarına ağır cavablar

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018



## İlham Əliyev Milli İncəsənət Muzeyinin açılışında iştirak edib

**Dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı bərpa və yenidənqurmadan sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak ediblər.**

Mədəniyyət naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və xanımına binada yaradılan şərait barədə məlumat verib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 18-də Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə də tanış olublar.

## Fransa prezidentindən Paşinyana Qarabağ mesajı

**"Fransanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, ədalətli və uzun müddətli tənzimlənməsində səylərini davam etdirəcəyinə əmin ola bilərsiniz".**

"Report" xəbər verir ki, bunu Fransa prezidenti Emmanuel Makron Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyana göndərdiyi təbrik məktubunda bildirib.

E.Makron N.Paşinyanı dekabrın əvvəlində keçirilən növbədənkənar parlament seçkilərində rəhbərlik etdiyi siyasi blokun qələbə qazanması münasibətilə təbrik edib.

Fransa prezidenti Ermənistana yardımı davam etdirəcəklərini də bildirib.

Qeyd edək ki, dekabrın 9-da Ermənistan parlamentinə növbədənkənar seçkilər keçirilib.

## İran prezidenti Türkiyəyə səfər edəcək

**İran prezidenti Həsən Ruhani dekabrın 19-da Türkiyəyə səfər edəcək. NTV telekanalı xəbər verir ki, onu Türkiyəyə prezident Rəcəb Tayyib Ərdoğan dəvət edib. Məlumata görə, dövlət başçıları Türkiyə-İran 5-ci Ali Strateji Əməkdaşlıq Şurasının toplantısına qatılacaq. Tədbirdə iki dövlət arasında ticarət dövriyyəsinin 30 milyard dollar çatdırılmasının hədəf olaraq göstəriləcəyi bildiriləcək.**

Səfər çərçivəsində prezidentlərin iştirakı ilə iqtisadi, mədəni və siyasi sahələr üzrə müqavilələrin imzalanacağı nəzərdə tutulub.

Səfər iki gün davam edəcək.

## Bu il dünyada 80 jurnalist öldürülüb

**Sərhədsiz Reportyorlar Təşkilatı 2018-ci il üçün hesabat açıqlayıb.**

Modern.az xəbər verir ki, hesabata görə, 2018-ci ildə dünyada 80 jurnalist öldürülüb, 348 nəfər həbs olunub, 60 media nümayəndəsi isə girovluqdadır.

Hesabatda vurğulanır ki, jurnalistlərin qətli, həbsi, girov götürülməsi, məcburi yoxaçıxma halları artıb. Qurum jurnalistlərin builki kimi zorakılığa, pis rəftara məruz qalmadığını vurğulayır.

2018-ci ildə ən çox jurnalist Əfqanıstanda öldürülüb - 15 nəfər. Suriyada 11, Meksikada isə 9 jurnalist öldürülüb. İyunda "Capital Gazette"nin beş əməkdaşının güllələnməsi ilə Amerika Birləşmiş Ştatları da siyahıda önə çıxarıb.

Hazırda dünyada 348 jurnalist həbsdədir, ötən il bu rəqəm 326 idi. Həbsdəki jurnalistlərin yarıdan çoxu Çin, İran, Səudiyyə Ərəbistanı, Misir və Türkiyədə saxlanılır. Təkcə Çində 60 jurnalist həbsdədir.

Hazırda girovluqda 60 jurnalist var. Onların çoxu Suriya, İraq və Yəməndə saxlanılır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Azərbaycanın qətnaməsi BMT-də qəbul edildi

**2018-ci ilin 17 dekabr tarixində BMT Baş Assambleyasının plenar iclasında Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə konsensusla qəbul edilib.**



Xarici İşlər Nazirliyindən verilən məlumata görə, 62 ölkə qətnaməyə həmmüəllif kimi qoşulub.

Azərbaycan tərəfindən iki ildən bir irəli sürülən qətnamənin əsas məqsədi dünyada silahlı münaqişələr şəraitində itkin düşmüş şəxslərin probleminə diqqətin daha da artırılmasından ibarətdir.

Qətnamədə dünyanın bir sıra yerlərində silahlı münaqişələrin və bunun nəticəsində itkin düşmüş şəxslərin sayının artması ilə bağlı dərin narahatlıq ifadə olunur.

Qeyd edilir ki, itkin düşmüş şəxslər problemi onların ailələrinə böyük iztirablar gətirir və münaqişələrə son qoyulması sahəsində həyata keçirilən səylərə mənfi fəsadlar törətməkdə davam edir.

Qətnamə dövlətləri beynəlxalq humanitar hüququn müddəalarına hörmət və riayət etməyə, silahlı münaqişələr şəraitində itkin düşmə hallarının qarşısının alınması, itkin düşmüş şəxslərin axtarışı ilə bağlı bütün lazımi tədbirlər həyata keçirməyə, o cümlədən beynəlxalq öhdəliklərinə uyğun olaraq itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün əməkdaşlıq etməyə çağırır. Qətnamə itkin düşmüş şəxslərin ailələrinin əzizlərinin taleyi barədə məlumat əldə etmək hüququnu təsdiq edir. Qətnamə dövlətləri silahlı münaqişələr şəraitində itkin düşmüş uşaqların məsələsinə xüsusi olaraq diqqət yetirməyə çağırır.

Qətnamədə BMT baş katibinin Baş Assambleyanın 75-ci sessiyasına (2020) və BMT-nin İnsan Hüquqları Şurasının müvafiq sessiyasına onun icrasına dair praktiki tövsiyələrin də yer aldığı müfəssəl hesabat təqdim etməsi çağırışı yer alır.



## Azərbaycanda 8 ay ərzində diabet xəstələrinin sayı 20 min artıb

**Bunu medicina.az-a açıqlamasında Səhiyyə Nazirliyinin baş endokrinoloqu, deputat Rafiq Məmmədhəsənov deyib. Bildirib ki, il bitməmiş şəkərli diabetdən əziyyət çəkənlərin sayı 260 min olub:**

"2016-2020-ci illəri əhatə edən şəkərli diabet xəstələrinə dövlət qayğısı proqramına bu il səhiyyə xərclərindən əvvəlki illərə nisbətən daha çox vəsait ayrılıb - 44,3 milyon. Həmçinin xronik böyrək çatışmazlığı xəstələrinə əlavə olaraq 15 milyon manat ayrılacaq. Bildiyimiz kimi, diabetin ağırlaşmalarından biri də böyrək xəstəlikləridir, xəstələr dializ almağa məcbur olurlar. Bu da əlavə problemdir.

Düzdür, xəstələrin tam təminatı üçün hələ bir qədər də vəsait lazımdır. Çünki ilin əvvəlində diabet xəstələrinin rəsmi sayı 240 min nəfər idisə, avqustda, heç il bitməmiş 260 000 oldu. Bilirsiniz, diabet artıq tibbi yox, sosial problemə çevrilir. Bütün dünya üçün qlobal sosial problemdir.

Şəkərli diabet özü yox, ağırlaşmaları bir qədər çətindir: gözdən əlillik, ayaqların amputasiyasına görə əlillik, hemodializ xəstələrinin çoxu diabetin payına düşür.

Diabet müasir bələ deyil. Bu xəstəlik eramızdan əvvəl də var idi, Hippokratın əsərlərində də qeyd olunub. Azərbaycanda da qədimdən var. Amma bu qədər çox deyildi".




## Heydər Əliyev Hava Limanında Azad İqtisadi Zona yaradılacaq

**Gələn il Heydər Əliyev Beynəlxalq Hava Limanında qabaqcıl dünya təcrübəsi nəzərə alınmaqla Azad İqtisadi Zonanın yaradılması haqqında məsələ Nazirlər Kabinetinin 2019-cu il üçün İş Planına daxil edilib.**

BakuPost-un məlumatına görə, bununla bağlı gələn ilin fevral ayında Nazirlər Kabinetinin xüsusi iclası keçiriləcək.

Bu sahədə icraçı qurumlar "Azərbaycan Hava Yolları" QSC, Nəqliyyat, Rabitə və YüksəkTexnologiyalar Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət və Gömrük Komitəsi müəyyən edilib. Fevralın 1-dək müvafiq qurumlar məsələ ilə bağlı materialları Nazirlər Kabinetinə təqdim etməlidir.

İşin icrasına nəzarəti həyata keçirən və məsuliyyət daşıyan qurum Nazirlər Kabineti Aparatının Kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsidir.

Qeyd edək ki, Azərbaycan hökumətinin Heydər Əliyev Beynəlxalq Hava Limanında Azad İqtisadi Zona yaratmaq niyyətinin olduğu ilk dəfə keçən ilin noyabrında məlum olub. "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Bakıda keçirilən "Caspian Air Cargo Summit 2017" VII Beynəlxalq konfransında Heydər Əliyev Beynəlxalq Hava Limanında Azad İqtisadi Zona yaradılacağını açıqlayıb.

## Novruz Məmmədov nazirə yeni səlahiyyət verdi

**Baş nazir Novruz Məmmədov "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" texniki yardım layihəsini imzalamaq səlahiyyətinin verilməsi barədə" sərəncam imzalayıb.**

Sərəncama əsasən Azərbaycan Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" texniki yardım layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə verilib.

Xarici İşlər Nazirliyinə göstərilən texniki yardım layihəsini Azərbaycan Hökuməti adından imzalamaq səlahiyyətinin əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə verildiyi barədə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına bildiriş göndərmək tapşırılıb.

## Joze Mourinyo "Mançester Yunayted" klubundan getdi

**Joze Mourinyo İngiltərənin "Mançester Yunayted" futbol komandası ilə yollarını ayırıb. Bu barədə klubun rəsmi saytı xəbər yayıb.**

"Qırmızı şeytanlar" portuqaliyalı mütəxəssisin rəhbərliyi altında son matçında "Liverpul"a 1:3 hesabı ilə uduzub.

## Hava çiskinli və yağışlı olacaq

**Dekabrın 19-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və səhər bəzi yerlərdə çiskinli olacağı, axşam isə yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 4-6, gündüz 7-9 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi şimal və şərq rayonlarında yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 1-5, gündüz 7-10 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 2-4 dərəcə isti təşkil edəcək.

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018

# Milli Məclisdə gərgin müzakirələr

## Deputatlar şəhidlərin və dövlət adamlarının təhqir olunmasına sərt mövqe bildirdi; "Ümumi təhsil haqqında" qanun layihəsi də ciddi müzakirələrə səbəb oldu



**Dekabrın 18-də Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. Cari məsələlərin müzakirəsi zamanı deputat, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev Avropa Parlamentində Azərbaycanın xeyrinə qəbul olunan qətnamə barədə parlamenti məlumatlandırdı.**

C.Feyziyev dedi ki, parlamentin nümayəndə heyəti 2018-ci ilin Azərbaycan Xalq Cümhuriyyəti ili olması ilə əlaqədar Strasburq şəhərində olub və dekabrın 11-də yüksək səviyyədə, 140-dan çox qonağın iştirakı ilə tədbir keçirilib. Həmçinin nümayəndə heyəti Avropa Parlamentinin bu il ərzində son plenar iclasında da iştirak edib. İclasda qəbul edilən məruzədə bütün Şərq Tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü öz əksini tapıb. C.Feyziyev bildirdi ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq üçün əsas şərt ərazi bütövlüyü məsələsidir. Həmçinin AP-da qəbul edilən məruzədə qaçqın və məcburi köçkünlərə yardımların göstərilməsi nəzərdə tutulur. C.Feyziyev dedu ki, bu məruzədə xalqların öz müqəddəratını təyinetməsi məsələsi əksini tapmır: "Erməni lobbisinin cəhdlərinə baxmayaraq, bu təklif rədd edildi, qəbul olunmadı. Bütün bu uğurlar Azərbaycanın xarici siyasətinin və cənab prezidentin qətiyyətli siyasətinin nəticəsidir.

Artıq Azərbaycana qarşı ikili yanaşmalara son qoyulmaqdadır. Bunun əsasında Azərbaycan prezidentinin qətiyyətli siyasəti və parlament diplomatiyasının uğurları dayanır".

Deputatlar Avropa Parlamentinin sənədini yüksək qiymətləndirdilər.

**Deputat Fazil Mustafa Bakının tıxaclı yollarına diqqət çəkdi:** "Bu gün Bakıya azacıq yağış yağdı və dərhal küçələrdə tıxaclar yarandı. Biz bu tıxac problemini niyə həll edə bilmirik? Bu gün ən narazı insanlar tıxaclarda qalan insanlardır. Adamın yol polisinə yazığı gəlir. Saatlarla yağışın altında yolları açmaq istəyirlər. Əgər mütəxəssis yoxdursa, xaricdən gətirək. Belə olmaz axı".

**İclasda Milli Qəhrəman Mübariz İbrahimova qarşı həqarətdən də danışıldı.**

**Fəzail İbrahimli bu mövzuya diqqət çəkdi:** "Mənim seçildiyim dairədə məhz Mübariz İbrahimovun valideynləri yaşadığı üçün mən bu mövzuda danışmağı özümə mənəvi borc bilirəm. Bu, bizim milli ruhumuza, milli qəhrəmanlarımıza hücumdur. Bu xanımı danışdıran genetik kodun diktəsidir. Görünür, dayıları ona bu cür danışmağı diktə edirlər. Bu psixoloqun psixiatra ehtiyacı var. Azərbaycana qarşı iti caynaqlar uzanır, ayrı-ayrı adamları alə keçirib dövlətçiliyimizə qarşı hərəkətə keçmək istəyirlər". **Deputat dedi ki, belə adamlara qarşı ictimai qınaq xüsusi rol oynamalıdır:** "Bu, iş yerində qınanmalıdır. Görsün ki, cəmiyyət tərəfindən çox böyük qınağa məruz qalır".

**Spiker Oqtay Əsədov çıxışa reaksiya verdi:** "Mən xalqımızın bu məsələyə göstərdiyi hiddətin şahidi olmuşam. Sosial şəbəkələrdəki mövqeyi müşahidə etdim. Ona görə belə cılız məsələyə Milli Məclisdə vaxt ayırmağa ehtiyac görmürəm. Bu adam heç institut da bitirməyib, hələ psixoloq olması üçün illər lazımdır. Xahiş edirəm digər çıxış edənlər də bu məsələnin üstündə dayanmasınlar. Həmin xanımın cavabını xalq verdi".

Plenar iclasda sosial şəbəkələrdə, ayrı-ayrı media orqanlarında yer alan təhqiramiz fikirlərdən də danışıldı və bu kimi hallara qarşı sərt addımların atılması zəruri sayıldı.

**Komitə sədri Siyavuş Novruzov bu məsələlərin üstündən keçilməsini mümkün saymadı:** "Oqtay müəllim, fikirlər səslənir ki, o məsələlərin yeri bura deyil. Biz addımımızı geri qoyduqca, bunlar bir az da gəlirlər buradakıların üzərinə. Dövlətimizin baş qurucusu haqqında olmazın təhqir ifadələr yağdırırlar. Biz niyə susmalıyıq? Biz niyə bunların cavabını verməməliyik? Bir qrup hesab edir ki, biz onların səviyyəsinə düşməməliyik. Mən bu mahnını 20 ildir bu parlamentdə eşidirəm. Söz demək istəmir, ona görə də bu bəhanə ilə sözün altından çıxmağa çalışır. Burada oturan deputatların hər birini təhqir edirlər. Ölkənin ziyalısı da, alimi də, akademiki də, deputatı da bunların cavabını verməlidir. Hər kəs öz prezidentini, ümummilli liderini qorumalıdır. Biz bunları başlı-başına buraxmışıq. Bunlar nə milli azadlıq hərəkatında, nə Azərbaycan torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak ediblər, nə xalqın taleyüklü məsələlərinin həllinə qatılıblar, nə ictimai-siyasi həyatda olub, nə siyasi partiyanın tərkibində fəaliyyət göstərib. Müxtəlif ölkələrdə müxtəlif adlar altında ordan-burdan pul alıb Azərbaycana qarşı təxribatlarla məşğuldur".

İclasda Azərbaycanla Rusiya arasında imzalanan iki sənəd müzakirəyə çıxarıldı. Deputatlar "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iki ölkə arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi barədə" qanun layihəsini və "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini müzakirə etdilər.

Deputat Fəzail Ağamalı iki ölkə arasındakı münasibətlərdəki pozitiv dəyişiklikləri yüksək qiymətləndirməklə yanaşı, qonşu ölkədən Azərbaycanın səmimi və etibarlı müttəfiqliyinə adekvat münasibət göstərilməsini vacib saydı.

Spiker bildirdi ki, bu sənədlər Azərbaycanla Rusiya arasında əlaqələrin nə qədər yüksək səviyyədə olduğunun göstəricisidir.

**Siyavuş Novruzov isə növbəti dəfə Rusiyada yaşayan iş adamlarını tənqid etdi:** "Rusiyada yaşayan bəzi azərbaycanlılar dövlət başçısının, Milli Məclisin apardığı işi, dostluq münasibətləri ilə bağlı atdığı addımları öz adlarına çıxırlar. Hansı ki barmağı barmaq üstünə qoymayıblar. Onlar indiyə qədər heç bir iş görməyiblər. Ancaq Azərbaycanın ayrı-ayrı mətbuat orqanlarına müsahibə verməklə özlərini qəhrəman kimi göstərmək istəyirlər".

"Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Komitə sədri Əli Hüseynli layihə barədə məlumat verdi. Layihəyə əsasən, Dövlət Gerbi Konstitusiya qanununa uyğun təsvir edilməli və nəzərdə tutulan qaydada istifadə edilməlidir. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

"Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun layihəsi də müzakirə olundu.

Tahir Kərimli bir daha bu mövzuda çıxış edərək himnin yenidən oranjiman olunmasını zəruri saydı. Dedi ki, torpaqları işğal altında olan dövlətin himni daha möhtəşəm, daha əzəmətli olmalıdır.

**"Bu mövzulara son qoymaq lazımdır. Azərbaycanın Dövlət Himninin müəllifi Əhməd Cavad, musiqisi Üzeyir Hacıbəyova məxsusdur, mövzusunda müzakirəyə ehtiyac yoxdur". Deputat Qənirə Paşayeva bu fikirləri müzakirələr zamanı söylədi. Xanım deputat himnə hər hansı düzəliş edilməsini də mümkün saymadı:** "Əhməd Cavadın da, Üzeyir bəyin də ruhu şad olsun. Himnimizi indiyədək necə şövqlə oxumuşuq, bundan sonra da oxuyacağıq. Bu himn Cümhuriyyət tarixi ilə yaşıddır. "Hüququndan keçən əsgər" kimi gözəl sözmü var? Himndə elə bir cümlə yoxdur ki, o, xalqda pessimistlik doğursun. Sözlərdə Azərbaycana məhəbbət, onun uğrunda savaşmaq var. Himnimizi bu günə kimi necə sevmişiksə, bundan sonra da sevib qorumalıyıq".

**Birinci vitse-spiker Ziyafət Əsgərov isə bir məsələyə aydınlıq gətirilməsini zəruri saydı:** "Biz dövlət himninə fərağat halda, yoxsa əl ürəyin başında qulaq asmalıyıq? Hər halda, ikinci oxunuşda bu məsələyə aydınlıq gətirməliyik".

İclasda "Ümumi təhsil haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Qanun layihəsini təqdim edən parlamentin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli bildirdi ki, sənəd 5 fəsil 33 maddədən ibarətdir.

**Müzakirələr zamanı çıxış edən Siyavuş Novruzov bildirdi ki, bu gün məktəblərdə oxuyan o şagirdlərdən nə hərbçi, nə əsgər, nə də hüquq-mühafizə orqanlarında çalışan çıxacaq:** "Çünki əvvəllər uşaqlar həm əyləncəyə, həm idmana, həm də təhsilə vaxt ayırırdılar. Bu gün isə təhsil saatına görə Koreyanı da keçmişik. Uşaqlar səhər saat 8-dən axşam 10-a qədər təhsillə məşğul olurlar. Hansısa dövlətin mexanizmini olduğu kimi tətbiq etmək olmaz". **S.Novruzov dedi ki, artıq valideynlər uşaqlarına nəinki repetitor, hətta çanta daşıyan tuturlar:** "Çünki məktəblilərin çantasının çəkisi 12-14 kiloqramdır. Belə olan halda, aşağı sinif şagirdləri çantasını daşıya bilmir. Bununla bağlı qərar qəbul edilməlidir".

**S.Novruzov özəl təhsil müəssisələrinin qiymətləri ilə bağlı məsələyə də toxundu. Dedi ki, kim təhsil müəssisəsi tikirsə, özündən qiymət qoyur:** "Təhsil müəssisəsi bununla bağlı bir dəfə də hesabat vermir. İstər ali, istərsə də orta özəl təhsildə hər kəs istədiyi qiyməti qoyur. Heç bir əsas da göstərmir ki, qiymətlər niyə belədir? Birinin qiyməti 1000, digərinin 5000, o birinin isə 7500 manatdır. Baxdıqda görürük ki, bahalı məktəblərin müəllimləri dövlət məktəblərində çalışan müəllimlərdən çox məvacib alır. Belə olan halda, o boyda maliyyə hara gedir? O maliyyə təhsilə gedirmi? Bunlar müəyyənləşdirilməldir".

**Qüdrət Həsənquliyev onu narahat edən problemlərə diqqət çəkdi:** "Bu gün Azərbaycanda ümumi təhsilin əsas problemi öz həllini tapmayıb. Ölkəmizdə əsas problem repetitorluqdur. Bunun necə aradan qaldırılması ilə bağlı qanunda hər hansı tənzimləyici rolu görmürük. İstənilən ali məktəbdə auditoriyaya girin, sorğu keçirin ki, kim repititorun yanına getməyib və ali məktəbə daxil olub? Qrupda bir-iki belə tələbə ola bilər. Bu, valideynlərin büdcəsinə ciddi ziyan vurur. Bəzi hallarda hətta valideynlər uşaqlarını lazımi şəkildə qidalandırmırlar, amma istəyirlər ki, uşaqları ali təhsil ala bilsin".

**Deputat dedi ki, orta məktəb müəllimlərinin əmək haqqının minimum həddi ən azı orta aylıq əmək haqqından az ola bilməz:** "Repititorluq dövlət tərəfindən qəbul olunursa, deməli, qanunvericiliklə tənzilmlənməlidir. Yox, qəbul olunmursa, deməli, bunun aradan qaldırılması istiqamətində addımlar atılmalıdır".

**Q.Həsənquliyev dedi ki, təhsildə iki növbəli tədris də ən ciddi problemdir:** "Dünyada bu, çoxdan yığışdırılıb. Bunun üçün Azərbaycanda yeni məktəblər tikilməlidir. Məktəb tikintisi stimullaşdırılmalıdır. Xüsusilə də vergi güzəştləri yolu ilə. İkincisi, xeyriyyəçilik stimullaşdırılmalıdır. Bu, qanunlarda öz əksini tapmalıdır. Biz bu tipli məsələləri fundamental baxımdan qanunvericilik səviyyəsində həll etmədən ciddi dəyişikliklərə nail ola bilməyəcəyik". **Deputat dedi ki, həm alimlərin, həm ali təhsillilərin sayına görə regionda geri qalırıq:** "Bu gün Fransada sarı gödəkçəlilərin ən tələblərindən biri budur ki, ali məktəblərə qəbul sadələşdirilsin. Azərbaycanda da ali məktəblərə qəbul sadələşdirilməlidir. Ali məktəblərə qəbul yalnız orta məktəblərin buraxılış imtahanlarının nəticələrinə uyğun olaraq aparılmalıdır. Bütün sivil dünyada belədir. Biz niyə bu addımı ata bilmirik, başa düşə bilmirəm. Biz bu kimi fundamental məsələləri həll edə bilməsək, başqa nə qədər mükəmməl qanunlar qəbul etsək də, təhsilin inkişafına öz töhfəsini verə bilməyəcək".

**Müzakirələrdən sonra qanun layihəsi ilk oxunuşda qəbul edildi.**

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

**Azərbaycanda vergilər nazirinin dəyişməsindən bir il ötür. Prezidentin sərəncamı ilə Fazil Məmmədovun vergilər naziri vəzifəsindən azad edilib, yerinə Mikayıl Cabbarovun təyin olunmasından keçən bu dövr ərzində ölkə ictimaiyyətinin gözü bu orqanlarda olub desək, yanılmarıq. Çünki F.Məmmədov vəzifədən azad olunan zaman fəaliyyəti Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tərəfindən tənqid olunmuşdu. Yeni təyinatdan az sonra nazir M.Cabbarov vergi orqanlarında, eyni zamanda vergilər sistemində ciddi dəyişikliklərin olacağına dair açıqlamalarla çıxış etdi.**

# Mikayıl Cabbarovun bir ili - ekspertlərin şərhi

## "Münasibətlərin sivil müstəvidə qurulması, nümunəvi vergi ödəyicilərinin yersiz narahat edilməməsi, elektron uçot və auditə üstünlük verilməsi başlıca prioritetlərdir"




Bir qədər sonra ictimaiyyət nümayəndələrinin iştirakı ilə geniş müzakirələr təşkil olundu. Müzakirə mövzusu isə vergitutma sistemində hansı dəyişikliklərin zəruri olması idi. İl ərzində bir neçə dəfə belə müzakirələr keçirildi: həm mütəxəssislər, həm sahibkarlarla. Nəhayət, ilin sonuna yaxın vergi sistemində gözlənilən dəyişikliklərin konturları ictimaiyyətə açıqlandı. Bu müddət ərzində həm də vergi orqanlarında xeyli dəyişikliklər baş verdi, xeyli sayda vəzifəli şəxs işdən azad olundu və sair.

Sahibkarların bir çoxu vergi orqanlarının indiki işindən razılıq edir. Bununla bağlı söhbət apardığımız bir neçə sahibkar vergi orqanlarında rüşvətxorluğun qarşısının alındığını bildirir

**Sahibkarlardan birinin dedikləri:** "Açıq görürük ki, vergi əməkdaşları vicdanla işləyirlər. Yəni kimin dövlətə nə ödəyəcəyi varsa, onu istəyirlər. Əvvəl beləydi ki, pulunu verib, vergi ödəməkdən yayına bilirdin. İndi belə hal mümkün deyil. Açığı, bir çoxları üçün belə işləmək rahat deyil - narazılıq edənlər də var ki, pulnan heç bir məsələni həll edə bilmirlər. Amma yəqin ki, zaman keçdikcə bu vəziyyətə alışacaq hamı".

**Sahibkarların Vergi Məcəlləsinə edilən dəyişikliklərlə bağlı gözləntiləri də çoxdur:** "Ticarət sahəsində çalışanlar üçün müəyyən çətinliklər olacaq, hamı belə fikirləşir. Amma digər sahələrdə çalışanlar üçün müsbət dəyişikliklər çoxdur. Yəqin ki, dəyişikliklər praktikada tətbiq olunmağa başlayandan sonra daha dəqiq qiymət verə biləcəyik".

**İqtisadçı-ekspert, İqtisadi Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Qalib Toğrul deyir ki, M.Cabbarov vergi ödəyicilərinə münasibətdə ittiham tonunda danışmayan, vergilərin dövlət büdcəsinə tam və şəffaf şəkildə ödənilməsi ilə bağlı mövcud problemlərdə vergi ödəyicilərilə yanaşı, vergi orqanlarının da səhvləri olduğunu etiraf edən ilk vergilər naziridir:** "Nazir ilk ictimai çıxışında Vergi Məcəlləsinə ildə bir neçə dəfə dəyişiklik edilməsi ənənəsinin yanlış olduğunu, vergi dəyişikliklərinin ilin sonunda büdcə paketilə birgə müzakirəsini doğru hesab etdiyini bildirmişdi. Nazir sözünü tutdu və il ərzində müxtəlif maraqlı tərəflərdən toplanmış təkliflər layihə halına salınaraq Milli Məclisə təqdim olundu. Təbii ki, dəyişikliklər layihəsinin hazırlanması prosesində, xüsusilə büdcənin düzgün tərtibi ilə bağlı böyük məsuliyyəti olan Maliyyə Nazirliyinin və digər əlaqəli dövlət qurumlarının da rolu var. Bu da ortaq məsuliyyət doğurur".

**Ekspertin sözlərinə görə, Vergi Məcəlləsinə son dəyişikliklər əsasən 3 istiqamətdə problemlərin aradan qaldırılmasını nəzərdə tutur:** "Birincisi və ən vacibi qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, işəgötürən və işçilərin əmək müqaviləsi bağlaması istiqamətində təşviq olunmasıdır. Bura qeyri-dövlət sektorunda çalışanlara (qeyri-neft sektoru) münasibətdə 8 minə qədər əmək haqqı alanların muzdlu işlə bağlı ödəmə mənbəyində vergidən azad olunması, digər azadolma və güzəştlər daxildir. İkinci istiqamət uçot və hesabatlılıqla bağlı tələblərin sərtləşdirilməsidir. Bu məsələdə həm dövlət, həm də özəl sektora münasibətdə ciddi dəyişikliklər nəzərdə tutulur. İlin ortasında "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası qanununa edilən dəyişikliklər və əlavələrin nəzərdə tutduğu təkmilləşdirmələr Vergi Məcəlləsinə hazırkı dəyişikliklərlə davam etdirilib. Üçüncü istiqamət vergi inzibatçılığının təkmilləşdirilməsidir. Hesab edirəm ki, bu sonuncu vergilər nazirinin ən çox diqqət yetirdiyi məsələlərdəndir. Vergi ödəyicilərilə vergi orqanları arasında münasibətlərin sivil müstəvidə qurulması, nümunəvi vergi ödəyicilərinin yersiz narahat edilməməsi, elektron uçot və auditə üstünlük verilməsi başlıca prioritetlərdəndir".

**Q.Toğrulun fikrincə, Vergilər Nazirliyi Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı müzakirələrə xaricilərlə yanaşı, daha çox yerli ixtisaslaşmış konsaltinq şirkətlərinin və ekspertlərin cəlb olunması gərəkir:** "Və yaxşı olardı ki, bu müzakirələr layihə əlaqədar qurumlara və parlamentə təqdim edilməmişdən öncə təşkil olunsun. Daha bir təklifim nazirlikdə ictimai şuranın yaradılması işlərinin sürətləndirilməsi ilə bağlıdır. Düzdür, nazirlik ildə bir neçə dəfə ekspertlərin görüşünü təşkil edir, dəyişikliklərlə bağlı müzakirələrə yerli ekspertlər dəvət olunur. Ancaq ictimai şura daimi fəaliyyət göstərən məşvərətçi qurum olduğundan, ictimai iştirakçılığın bu təkmil forması vətəndaş cəmiyyətini təmsil edən ekspertlərlə nazirlik arasında əməkdaşlığın daha səmərəli qurulmasına böyük töhfə verərdi".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Hökumətdə "Asan"laşdırma prosesi: "kiçik padşahlar" taxtdan salınır

## Qabil Hüseynli: "İnsanların qayğılarına diqqət etməyən icra başçılarının çoxu vəzifələrindən kənarlaşdırılıb"

**Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci ildə bir neçə icra başçısı vəzifəsindən azad edildi. Həyata keçirilən kadr islahatlarını dəyərləndirən ekspertlər hesab edirlər ki, bu, hökumətin "Asan"laşdırılması siyasəti fonunda görülən işlərin bir hissəsidir. Çünki ictimaiyyətdə "kiçik padşahlar" adlandırılan bəzi icra başçıları yerlərdə xalqı incidir, özlərini məmurdan çox şah kimi aparırdılar.**



Ekspertlərin fikrincə, aparılan islahatlar fonunda bu kimi davranışlar sərgiləyən məmurlar vəzifələrindən kənarlaşdırılır və onlar gənc, xalqla işləyə bilən kadrlarla əvəzlənirlər. Gənc kadrların isə əksəriyyəti yerlərdə əhali ilə birbaşa ünsiyyətə üstünlük verirlər. Bu baxımdan insanlar asan formada sözlərini, problemlərini başçıya çatdıra bilirlər. Ekspertlərin fikrincə, mövcud vəziyyət ölkədə müsbət dəyişikliklərə gətirib çıxara bilər.

**"Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli son aylar idarəetmədə baş verən dəyişiklikləri aşağıdakı kimi dəyərləndirdi:** "Əslində "Asan"laşdırma dünyada çox mütərəqqi təcrübələrdən biridir. Hətta bu sahədə Azərbaycanın təcrübəsini öyrənib, tətbiq etməyə çalışan bir xeyli ölkələr var. Bu baxımdan "ASAN Xidmət"in Azərbaycanda tətbiq edilməsi unikal hadisədir. Lakin hesab edirəm ki, idarəetməni bütünlüklə mərkəzləşdirib, "ASAN Xidmət"in sərəncamına vermək qeyri-mümkündür. Elə sahələr var ki, həmin sahələr konkret olaraq şəxsiyyətin iş başında oturmasını tələb edir. Bu şəxsiyyət ictimai-siyasi həyatın bir çox sahələrinə nəzarət edib, onları əlaqələndirir. İcra başçıları da belə sahələrdən biridir. Onu tamamilə "Asan"laşdırmaq, "ASAN Xidmət"ə vermək qeyri-mümkündür. Respublikada elə sahələr var ki, bunları bütövlüklə "ASAN Xidmət"in sərəncamına veriblər. Bura özəlləşdirmənin, pasport xidmətinin bəzi sahələri daxildir. Ümumiyyətlə, sənədləşdirmə və özəlləşdirmə ilə bağlı sahələrin əksər hissələri "ASAN Xidmət"in səlahiyyətləri çərçivəsinə daxil edilib. Bu model korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizənin ən effektiv metodudur. "ASAN Xidmət"in sahələrinin genişləndirilməsi nəticəsində rüşvət və korrupsiyaya qarşı mübarizə xeyli uğurlu aparılıb. Nəticədə bu sahədə baş verən hadisələr gözlə görüləcək qədər səngiyib. "Kadrlar hər şeyi həll edir" prinsipi yenə də qalmaqda davam edir. Çünki cəmiyyət canlı bir orqanizmdir və bura yüksək inkişaf etmiş, peşəkar kadrların rəhbərlik etməsi tələb olunur. Bu baxımdan da cəmiyyətin idarə olunmasının böyük bir hissəsi insan amilinə söykənir. Yəni icra başçıları, nazirlər, onların yerli orqanları idarə edilməyə məhkumdur. Tələb olunur ki, proseslərin idarə edilməsi, məqsədyönlü hədəflərə yönəldilməsi məhz peşəkar kadrlar vasitəsilə həyata keçirilsin".

**Q. Hüseynli bildirib ki, ölkə başçısının kadr islahatları öz nəticəsini verir:** "Özünü doğrultmayan, uzun müddətdir ki, çalışdığı sahədə müsbət dönüşə nail ola bilməyən, yaxud da fəaliyyətində ciddi nöqsanlar aşkar edilən adamlar işdən kənarlaşdırılır. Onlar cavan, dinamik, peşəkar kadrlarla əvəzlənir. Əlbəttə ki, hələ ki bu şəxslərdən öz işlərinə müsbət yanaşmanı görürük. Bu adamlar kabinetə qapanmayıb, insanlarla canlı ünsiyyətdə olmağa üstünlük verirlər. Bütün bu kimi proseslər isə əhali tərəfindən də müsbət qarşılanır. Məsələn, kənd təsərrüfatı naziri İnam Kərimovu qeyd edə bilərik. O, demək olar ki, ayağına çəkmə geyinib, sahələrdə sahibkarlarla görüşür, onların problemləri ilə yaxından tanış olur. Bu yaxınlarda qeyd etdi ki, yaxın zamanlarda kənd təsərrüfatı məhsullarının istehsalının 50 faizədək artırılmasının bünövrəsi qoyulub. Ancaq əhali ilə birbaşa təmasda olmayan məmurlar da vardı. İnsanlar tərəfində "kiçik padşahlar" adlandırılan, məmur özbaşınalığında xeyli payı olan icra başçılarının da dəyişilməsi prosesi sürətlə aparılır. Yəni indiyə qədər öz şəxsi mənfəətini güdən, insanların qayğılarına diqqət etməyən icra başçılarının çoxu vəzifələrindən kənarlaşdırılıb. Bəzilərinin isə əməllərində müəyyən cinayət tərkibinin olması fikri mövcuddur. Bu işin hələ ki ideal səviyyədə aparılması qənaətində də deyiləm. Ancaq görülən işlər kifayət qədər müsbət təəssürat oyadır. Əhali arasında qayğıkeş məmur obrazının formalaşdırılması istiqamətində tədbirlərin görülməsi davam etdirilir. Çünki bu cür özbaşına, qanunlara bəzən tabe olmayıb, insanların hüquqlarını tapdalayan məmurlar demək olar ki, idarəetmə strukturundan kənarlaşdırılır. Bu prosesi bitmiş saymaq olmaz. Hələ ki proseslər davam etməkdədir. Bu isə hesab edirəm ki, ölkədə idarəçiliyin səmərəsini artırmağa və eyni zamanda dövlətçiliyə inam hisslərinin daha da gücləndirilməsinə gətirib çıxarmalıdır. Düşünürəm ki, kadr islahatlarının həyata keçirilməsi ardıcıl, yönləndirilən proses olmalıdır. Proses xalqın, ölkənin rifahı naminə həmişə təkmilləşdirilməlidir".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018



# Müsavat, AXCP və REAL "Müxalifətin zirvəsi"ndə olmayacaq

## İsgəndər Həmidov: "Özlərindən razı insanlar bizə lazım deyil"

**Dekabrın 25-də saat 12:00-da KXCP qərargahında keçiriləcək "Müxalifətin zirvəsi"nə az qaldı. Artıq tədbirə dəvət olunan 40-a yaxın siyasətçinin hər birinə rəsmi dəvətnamələr göndərilib.**

Bir sıra partiyaların zirvə görüşündə iştirak etməyəcəkləri dəqiqləşib. Bunlar müxalifətin öndə gedən qurumlarından sayılan Müsavat, AXCP və REAL partiyalarıdır. Bu partiyaların rəqabət apardıqları bir sıra qurumların və siyasətçilərin gündəmə gəlməsini istəmədikləri, onlarla bir masa ətrafında oturmamaları üçün dəvətdən imtina etdikləri iddia olunur. Hətta REAL "Müxalifətin zirvəsi"nin təşəbbüskarı olan, sabiq daxili işlər naziri İsgəndər Həmidovla görüşdən belə imtina edib.

**İ.Həmidov "Yeni Müsavat"a tədbirlə bağlı danışarkən gileyləndi:** "Hakimiyyət bəzi dostlara, qardaşlara təsir edir. Nəticədə onlar bəzi bəhanələr axtarırlar. Amma bir bəhanələri yoxdur. İşlər hələ ki normal gedir. Bunların hamısı bəhanədir ki, filankəs masa ətrafında oturacaqsa, mən orada necə oturum? Boş-boş bəhanələrdən başqa bir şey deyil. Hökumətin qurduğu plandır ki, bu dəyirmi masa, ümumiyyətlə baş tutmasın. Bu zirvə görüşündə hələ müzakirələr başlayır. Ortada ciddi bir şey yoxdur. Lakin görünən odur ki, bəzi dairələr tədbirdən narahatdır. Onun üçün bəzi dəvətlilər vasitəsilə manelər yaratmağa cəhdlər edirlər. Müsavat, AXCP və REAL iştirak etmirsə, canları sağ olsun, onlara müvəfəqiyyətlər arzulayıram. Hər kəsin öz yolu var. Hər kəs də öz yolunda gedir".

**Qeyd edək ki, "Yeni Müsavat"ın ötən sayına açıqlama verən REAL funksioneri zirvə görüşündə iştirak etməyəcəklərinə səbəb kimi tədbirin məramının, məqsədinin məlum olmadığını göstərmişdi. İsgəndər bəy onun arqumentinə bu cür reaksiya sərgilədi:** "Onlar düzgün danışmırlar. Toplantının məqsədi də, məramı da məlumdur. Açıq şəkildə göstərilib ki, tədbir Azərbaycanda yaranmış vəziyyət və ondan çıxış yolları, müxalifətin vəzifələri barədədir. Özlərindən razı insanlar bizə lazım deyil. Mənə xalqı sevən insanlar lazımdır. Dəvətnamələri hamıya göndərmişik. Bir-bir görüşlərimiz də olub. Yalnız REAL-ın dəvətnaməsi göndərilməyib. Ona görə ki, REAL-a görüşmək üçün xəbər göndərdim, amma onlardan xəbər çıxmadı. Gördüm ki, görüşmək istəkləri yoxdur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**2019-cu ilin yazında Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçiriləcəyinə dair məlumatlar yayılmaqdadır. Bildirilir ki, hakimiyyət Milli Məclisə növbəti seçkilərin vaxtını ilyarım irəli çəkmək niyyətindədir. Bu məlumatlar cəmiyyətdə müzakirələrin aparılmasına səbəb olub: insanlar indiki parlament tərkibinin işini qiymətləndirməkdədir.**

# Milli Məclisin qalmaqallı 2015-ci il tərkibi

## Parlamentin yenilənməsi üçün ciddi əsaslar var

Qeyd edək ki, 2015-ci ildə formalaşdırılan indiki Milli Məclisin tərkibi ən qalmaqallı tərkib hesab olunur. Bu tərkibin bir sıra üzvlərinin adı son illərdə çox böyük qalmaqallarda, cəmiyyətdə böyük etirazlara səbəb olan açıqlamalarda hallanıb. Bunlardan bir neçəsini xatırlatmağa dəyər.



Hüseynbala Mirələmov



Kamran Nəbizadə



Rəfail Cəbrayılov



Hadi Rəcəbli

Bir neçə gün əvvəl məlum oldu ki, Azərbaycan Sənaye Korporasiyasının baş direktoru, deputat Kamran Nəbizadə Bakının mərkəzində yerləşən restoranlardan birində sərxoş halda dava salıb. Bu barədə haqqin.az və virtualaz.org saytlarının rəhbəri Eynulla Fətullayev xəbər verib. Jurnalistin sözlərinə görə, deputatın sərxoş halda saldığı dava onun gözlərinin qarşısında, şəhərin mərkəzində yerləşən restoranlardan birində baş verib. Anlaqlı vəziyyətdə olmayan, ayaq üstə güclə dayanan Kamran Nəbizadə kütləvi davaya səbəb olub. Yalnız restoranın mühafizə xidməti işə qarışandan sonra davanın qarşısını almaq mümkün olub. Sərxoş deputatı birtəhər maşına oturdub evə apardılar.

Bu günlərdə deputat Rəfail Cəbrayılovun adı ciddi qalmaqalda keçməkdədir. İş qadını olan Məlahət Qurbanova deputatın ona külli miqdarda borcunun olduğunu, amma illərdir ödəmədiyini bildirir. Xanımın sözlərinə görə, R.Cəbrayılov borcun müqabilində ona girov kimi verdiyi mənzilləri də başqalarına satıb. Xatırladaq ki, bir neçə il əvvəl R.Cəbrayılov və qardaşları bank tərəfindən məhkəməyə verilmişdi. Onlar bankdan 795 min manat kredit götürərək onu qaytarmırdılar.

Deputat, Əfv komissiyasının üzvü Elmira Axundovanın da adı ciddi maliyyə qalmaqalında keçməkdədir. Bir neçə ay əvvəl onun bu məsələ ilə bağlı telefon danışığı belə mətbuatda yayılmışdı. Xanım deputatın adı oğlu Həbib Axundovla birlikdə külli miqdarda - 10 milyon manat civarında dələduzluq işində keçir. Hazırda bu iş üzrə məhkəmə prosesi davam edir.

99 saylı Şəmkir kənd Seçki Dairəsindən deputat seçilən Sona Əliyeva ailəsi ilə bağlı problemlər üzündən uzun müddət gündəmdə oldu. Belə ki, deputatın anası Bəşirə Əliyeva mətbuata açıqlamasında qızını ata mülkünü ələ keçirməkdə ittiham edərək, onu məhkəməyə verdiyini bildirdi. Məlum oldu ki, S.Əliyeva atası rəhmətə gedəndən sonra əmlakın böyük hissəsini öz adına keçirib. Bundan sonra anası və qardaşı onu məhkəməyə verdilər, sonda ailə razılığa gəlsə də, proses xeyli müddət mətbuatın gündəmində oldu.

Deputat Tahir Kərimli bir neçə həftə öncə Azərbaycanın himninə dəyişiklik təklifi ilə cəmiyyətin ciddi etirazlarına səbəb oldu.

Bir müddət əvvəl vəfat etmiş deputat Astan Şahverdiyev Rusiyaya qazanc dalınca gedən azərbaycanlıları "otxod" adlandırması ilə gündəmə gəlmişdi. Onun fikirləri cəmiyyətdə kəskin reaksiyalara və müzakirələrə səbəb olmuşdu.

2016-cı ildə - devalvasiyalardan böyük zərər çəkmiş insanlar sosial-iqtisadi problemlərlə üzləşən zaman deputat Hüseynbala Mirələmov əhalini çox yeməkdə suçlamışdı: **"Ayağını yorğanına görə uzat. Azdırsa, az ye, çoxdursa, çox ye. Adamlar var ki, ət, balıq, çörək yemir ki, formada qalsın. Demək istəyirəm ki, çox yemək insanı tez qocaldır. Az yemək lazımdır".**

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli Lənkəranda yaşayan bir müəllimi misal gətirərək söyləyib ki, o müəllimlikdən əlavə, daş hörür: **"Lənkəranın Veravul kəndində Balabəy müəllim adlı bir şəxs var. O, günün birinci yarısı müəllimlik edir, nahardan sonra isə gedib daş hörür, ustalıq edir. Qazandığı pulla da ailəsini saxlayır. O, bunu heç də ayıb hesab etmir. Bunun nəyi pisdir ki?"** Deputat daha sonra deyib: **"Əgər vətəndaş yaxşı yaşamaq istəyirsə, çox işləməlidir. Əgər bu gün müəllim 150-200 manat maaş alır və dolana bilmirsə, o işdən sonra da başqa nə iləsə məşğul olmalıdır".**

Komitə sədri bu və ya digər fikirləri ilə son illərdə ən çox ictimai qınaqla üzləşən deputatlardan biridir.

Milli Məclis sədrinin müavini Bahar Muradova da cəmiyyətdə narazılığa səbəb olan fikirləri ilə seçilib. 2017-ci ilin büdcə layihəsinin müzakirəsi zamanı o, büdcənin gərgin qlobal və ölkədaxili şərait nəzarətə alınaraq hazırlandığını deyib: **"Hər kəs ayağını yorğanına görə uzatmalıdır. Neftin dünya bazarında ucuzlaşması və manatın devalvasiyası tələb edir ki, insanlar qənaət rejiminə keçsin, əhali yoxsul yaşamağa öyrəşsin, 2017-ci ilin daha çətin olacağını nəzərə alaraq hökumətdən gözləntilərinizi sonraya saxlayın".**

Göründüyü kimi, Milli Məclis üzvlərinin bir çoxu siyasi hakimiyyətin mənafeyinə zərbə vuran qalmaqallar, açıqlamalarla gündəmi boş qoymurlar. Onlarla bağlı cəmiyyətdə aparılan müzakirələr zamanı əksər hallarda bilavasitə hakimiyyət hədəfə çevrilir, insanlar narazılıq obyekti olan deputatların parlamentə buraxılmasında məhz onu suçlayırlar. Bütün bunlar göstərir ki, hazırkı parlament bır sıra istisnalarla, Azərbaycan hakimiyyətinin maraqlarına cavab vermir. Bu baxımdan, gələn ilin yazında Milli Məclisin tərkibinin ciddi şəkildə yeniləncəyi istisna olunmur.

❑ **TURQUT, "Yeni Müsavat"**

**Musavat.com saytının facebook səhifəsindəki canlı yayının bu dəfəki qonağı jurnalist, "Azərbaycan Azərbaycan" səhfəsinin admini Emil Məmmədov olub.**

# Vidadi İsgəndərlinin ağır ittihamlarına ağır cavablar

## Emil Məmmədov: "Onun məqsəd sırf gündəmə gəlməkdir"

Baş tutan canlı yayında mühacir Vidadi İsgəndərlinin onun barəsində son zamanlar səsləndirdiyi ittihamlar müzakirə olunub.

"Yeni Müsavat" xatırladır ki, son günlər sözügedən istiqamətdə yayılan informasiyalardan biri də V.İsgəndərlinin atasının məzarını təhqir edənlərin E.Məmmədovun dayısı uşaqları olmasıdır. İddialara görə, bu şəxslər sözügedən əməli E.Məmmədovun tapşırığı ilə etdiklərini deyiblər. Yazılan statuslarda həmçinin aşağıdakı məqamlar yer alıb: "Emil isə bunu tapşırıqla etdiyini deyib..."

**E.Məmmədov isə canlı yayın zamanı bildirib ki, onunla V.İsgəndərli arasında problem 2014-cü ildə başlanıb:** "2014-də bir dəfə Vidadi İsgəndərliyə zəng edib açıqlama almışdım. Bir saat sonra xəbər yayıldı ki, Vidadi İsgəndərlinin evinə Ziya Məmmədovun qoçuları hücum edib. Guya mən əlimdə avtomatla bunu binanın aşağısına çağırıram. Məni polisə çağırdılar, gedib izahat yazdım. Daxili İşlər Nazirliyi mənim telefon nömrəmi nəzarətə götürdü, onun iddia etdiyi saatlarda mənim zəng etmədiyim məlum oldu. O, yenə prokurorluğa, digər orqanlara müraciət etməyə davam etdi. Onun iddialarının heç biri sübut olunmadı. Biz onunla yerliyik. Hətta 2010-cu ildə seçkilərdə mən onun müşahidəçisi olmuşam. Uzaq qohumluq münasibətləri də var. O biləndə ki, kimsə hökumətyönlü bir saytda çalışır, ya da hakimiyyətin mövqeyini müdafiə edir, həmin adama qarşı avtomatik qısqanclıq hissi başlanır. Birmənalı şəkildə təhqir edir. Bu adamın 10 cümləsindən 8-i söyüşdür, təhqirdir. Təhqir edir, sonra da deyir ki, mən təhqirə qarşıyam".



**Müsahibimiz dedi ki, V.İsgəndərli tərəfindən hədəfə çıxarılmasının səbəbi 2018-ci ilin yanvar-fevral-mart-aprel ayları ərzində bu şəxslə bağlı rəhbəri olduğu sfera.az saytında silsilə yazıların yer alması olub:** "Biz o vaxt əksər deputatları danışdırdıq. Bu iddia edirdi ki, milli azadlıq hərəkatında olub, amma həmin hərəkatda olan adamlar onu tanımadıqlarını dedilər və inkar etdilər. Ondan sonra onun bizə qarşı qərəzi başladı. Onun atasının qəbrini murdarlayan adam video çəkib və orada tez-tez Göyçaya xas olmayan ləhcədə - "ateyin" sözündən istifadə edir. Nə məndə, nə də qohumlarımda elə ləhcə yoxdur. Biz "atanın" sözünü "ateyin" deyə tələffüz etmirik. Oradakı səs yiyələri nə mənəm, nə də mənim dayım uşaqları. Vidadi İsgəndərlinin murdarlandığını iddia etdiyi qəbir də atasının qəbrindən fərqlidir. Mən düşünürəm ki, bu iyrəncliyi Vidadi özü edib. Sırf gündəmə gəlmək üçün".

**E.Məmmədov dedi ki, 2014-cü ildəki hadisədən sonra İsgəndərli onun barəsində söyüşlər, təhqirlər səsləndirir, canlı yayınlarda gah Ziya Məmmədova, gah da Qüdrət Həsənquliyevə bağlayırdı:** "Guya mən kiminsə sifarişi ilə qızının şəklini yaymışam. O absurd iddia bitəndən sonra isə başladı ki, guya mənim dayım oğlanları, mənim sözümlə onun atasının məzarını murdarlayıblar. Bu adam özündən xülyalar görüb. Azər Kazımzadə separatçı bir nəfər tanışıma deyib ki, guya Vidadi İsgəndərlinin atasının məzarının murdarlanmasını mən sifarişlə həyata keçirdiyimi ona demişəm. Mən də bununla bağlı statusun altında yazdım ki, ortaya sübut qoyulsun belə bir şey olubsa. Dərhal şərhimi sildi, özümü də bloka atdı. İddia edirlər ki, ofisim Beynəlxalq Mətbuat Mərkəzində olduğu üçün sifarişlər yerinə yetirirəm. Orada bizdən başqa nə qədər media orqanı fəaliyyət göstərir. Belə iddia olar? Mən özüm iş adamıyam. Sosial şəbəkələrdə saytların, şirkətlərin səhifələrinin reklamı ilə məşğulam. Mənim kiminsə maliyyəsinə, puluna ehtiyacım olmayıb".

**Müsahibimiz həmçinin xarici ölkələrdə Azərbaycan əleyhinə təbliğat aparan şəxslər barədə də danışdı. Dedi ki, NED təşkilatından qrant alan, anti-Azərbaycan təbliğatı aparanlar birdən-birə meydana çıxıblar:** "Mən onları canlı yayına çağırdım, heç biri çıxmadı. Söyüş söyən, təhqir edən adamlardır hamısı. Fransada kiminsə ailə üzvlərini, ləyaqətini, şəxsiyyətini dayanmadan təhqir edənlərə qarşı hansı cəza tətbiq edilir? Ofisi Praqada olan NED təşkilatı onlara maliyyə ayırır. Hətta bu yaxınlarda Tural Sadıqlı ilə digəri arasında olan qrant davası da sübut etdi ki, onların mahiyyəti, məramı nədir, nəcədir. Vidadi İsgəndərli də Fransada yaşayır indi və qardaşını da özü ilə aparıb. Orada müəyyən vəsaitlər qarşılığında anti-Azərbaycan kampaniyası aparır. Prokurorluqdan qovulmasına gəlincə, oradakı fəaliyyəti də parlaq olmayıb. Məsələn, kimsə oğurluq üstündə tutulub, amma döyə-döyə onun üstünə narkotik maddə işi qoyurmuş. Sonra bu adam birdən-birə müxalifətçi olub. Seçki zamanı adam döyüb. Həbsdə olanda ona dəstək verənləri isə çıxan kimi söyməyə başlayıb. 94 yaşlı anasını evdə tək qoyub, qardaşı ilə birgə Fransaya gediblər".

Müsahibimiz ona şər atan A.Kazımzadə ilə bağlı Tiflisə, hüquq-mühafizə orqanlarına müraciət edəcəyini dedi. O, eyni zamanda mühacirətdən yayılan videoların qarşısını almaq üçün bir neçə aylıq youtube.com saytının bağlanmasının uyğun olacağını dedi.

❑ **Sevinc TELMANQIZI,**
**Musavat.com**

# "Bu işin arxasında Azərbaycanın düşmənləri olan güclərin əli var"

## Emin Həsənli: "Azərbaycana qarşı kampaniyada alətə çevrilmiş həmin azərbaycanlılarla bağlı hüquqi tədbirlər görülməlidir"

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli son günlər cəmiyyəti narahat edən aktual mövzularla bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

***- Emin bəy, Milli Qəhrəman Mübariz İbrahimova qarşı çıxış xalqın çox böyük etirazına səbəb olub. Bu hadisəyə Sizin yanaşmanız necədir?***

- Mübariz İbrahimova qarşı Nərmin Şahmarzadənin o cür fikirlər işlətməsi çox hiddət yaradan hadisədir. Belə bir addımı özünə azərbaycanlı deyən şəxs atmamalıydı. Mübariz İbrahimov Azərbaycan xalqı üçün simvollaşmış milli qəhrəmandır. Ona dil uzatmaq Azərbaycan xalqını qarşına almaq, xalqı təhqir etmək deməkdir. Azərbaycan ictimaiyyətinin Nərminin fikirlərinə qarşı reaksiyası da bunu bir daha göstərdi. Mübariz İbrahimov dinc azərbaycanlılara qarşı soyqırım törətmiş və Azərbaycanın ərazilərinin zəbt etmiş Ermənistanın işğalçı əsgərlərinə qarşı vuruşub. Mübariz İbrahimov bir nəfər də olsun mülki ermənini, bir nəfər də olsun uşağı, qocanı, qadını öldürməyib. Mübariz əsl Azərbaycan kişisinə, hərbçisinə xas əxlaqla hərəkət edən hərbçi olub. O, Azərbaycanın ərazilərinə soxulmuş və orada yerləşmiş işğalçı ermənı hərbçilərini məhv edib. Bir hərbçi kimi Mübariz öz missiyasını qəhrəmanlıqla həyata keçirib. Mübariz Ermənistan ərazisinə daxil olmayıb, erməni əsgərlərini Ermənistan ərazisində öldürməyib. O əsgərləri məhv edib ki, həmin əsgərlər Azərbaycan ərazilərində idilər. Nərmin Şahmarzadə yaxşı olardı ki, məsələyə bu cür yanaşma ortaya qoyaydı. Mübariz cinayət törətməyib, cinayət törədənləri müharibə qanunlarına uyğun olaraq cəzalandırıb. Mübariz İbrahimovun hərəkəti dünyanın sayılıb seçilən hərbi ekspertləri tərəfindən çox yüksək qiymətləndirilib. Hətta düşmən özü belə, onun güclü olduğunu etiraf etmək zorunda qalıb.



Özünü kosmopolit beynəlmiləlçi kimi təqdim etmək istəsən belə, bunu xalqın simvoluna çevrilmiş qəhrəmanları, şəhidi aşağılamaqla etmək olmaz. Nərmin erməni işğalından, Xocalı qətllərindən danışmalıdır. Bəyan etməlidir ki, Azərbaycan xalqına, dinc insanlara ermənilər hansı maddi, mənəvi, psixoloji zərbələri vurublar. Azərbaycanın hər bir vətəndaşı bilməlidir ki, müharibə hələ bitməyib və ermənilər hələ torpaqlarımızı işğalda saxlayır. Ona görə də hər kəs danışıqlarında, milli məsələlərə münasibətdə çox diqqətli olmalıdır. Mümkündür ki, o, bu cür sərsəmləmələri Avropaya gedib orada yaşamaq izni almaq üçün edib. İkinci ehtimal odur ki, Nərmini bu cür çıxış etməyə kənardan kimlərsə hazırlayıb. Niyə Mübariz İbrahimov hədəfə alınır? Niyə Ramil Səfərov hədəfə alınır? Niyə son günlər vətənə xəyanət etmiş və cəzalandırılmış adamların qohumlarını ortaya çıxarıb danışdırılar və onlara dəstək kampaniyası təşkil edirlər? Onların valideynlərini haradasa başa düşmək olar. Belə ki, hər bir valideyn övladının və gələcək nəsillərinin üzərində vətənə xəyanət damğasının olmasını istəmir. Amma onları yönəldənlər, onları çəkib sosial şəbəkədə yayan və onlara dəstək kampaniyası təşkil edənlər var. Avropada oturub onlara dəstək verənlər var. Bir vaxtlar ölüləri diriykən vətənə xəyanət edirdi, indi də ölülərin üzərindən o alveri quranlar var. Məhkəməyə təsir etmək istəyirlər. Bax bu cür hallar yolverilməzdir. Geniş təhlil aparanda görürsən ki, son bir iki ildir, əsasən də 2016-cı ilin aprelindən sonra Azərbaycan dövləti, Azərbaycan silahlı qüvvələri, Azərbaycan prezidenti, Azərbaycanın qəhrəmanları məqsədli şəkildə hədəfə alınıb. Bu işin arxasında erməni əli var, Azərbaycanın düşmənləri olan güclərin əli var.

***- Nərmin Şahmarzadə Mübariz İbrahimovun valideynlərindən üzr istədi. Bir üzrlə bu hərəkətinin məsuliyyətindən yaxa qurtarırmı bu adam? Hüquq-mühafizə orqanlarına müraciətlər var ki, onun milli qəhrəmanımızla bağlı dediklərinə hüquqi qiymət verilsin və tədbir görülsün. Sizcə, hüquqi tədbirlərə əl atılması lazımdırmı?***

- Fikrimcə, ilk növbədə Nərminin özünün psixi durumunun necə olduğunu müvafiq orqanlar müəyyənləşdirməlidir. Əgər Nərmin o cür zərərli çıxışlarını davam etdirəcəksə, yəqin ki, onun haqqında hüquqi istiqamətdə araşdırmalar aparılmalı, arxasında hansısa qüvvələrin dayanıb-dayanmadığını, onu kimlərinsə danışdırıb-danışdırmadığını dəqiqləşdirəcəklər və Nərmin bu zaman müvafiq hüquqi cəzasını alacaq.

***- Avropada yaşayan bir qrup azərbaycanlı yenidən sosial şəbəkələrdə aktivləşiblər, söyüş kampaniyasına yenidən start verilib. Həmin adamlar haqda da hüquqi tədbirlər görülməlidirmi?***

- Azərbaycan hüquqi və demokratik dövlətdir. Azərbaycanda mətbuat və internet azaddır, sosial şəbəkələrə qadağa yoxdur. O dərəcədə azaddır ki, bu azadlıqdan həmin adamlar sui-istifadə edirlər. Azərbaycan dövləti onların əxlaqdankənar hərəkətlərinə mümkün qədər dözümlülük nümayiş etdirir. Bu, Azərbaycan dövlətinin və onun rəhbərliyinin iradəsidir ki, demokratiya, söz azadlığı inkişaf eləsin. Lakin təəssüf ki, bir sıra adamlar söz azadlığından sui-istifadə edərək təhqir kampaniyası aparırlar və bu, bir sistemli hal alıb. Deməli, bu kampaniya da bəzi dairələr tərəfindən maliyyələşdirilir, təşkil edilir və sistemli aparılır. Bu kampaniyanı təşkil edənlər Azərbaycan dövlətinin müstəqil siyasət yürütməsini istəməyənlərdir. Azərbaycan dövlətinin müstəqil siyasət xətti yürütməsinin başında da cənab prezidentimiz dayandığı üçün də hədəfə də onu alırlar. Azərbaycan cəmiyyəti bu kampaniyaya etirazını bildirir, bu kampaniyanı aparanlara etiraz edir, Azərbaycan dövlətinin müstəqil siyasətini dəstəkləyir. Azərbaycan xalqı həmin qüvvələrin ölkəmizdə sabitliyi pozmağa, Qarabağ məsələsinin həllinin qarşısını almağa çalışdıqlarını yaxşı bilir. Azərbaycana qarşı kampaniyada alətə çevrilmiş həmin azərbaycanlılarla bağlı isə həqiqətən də hüquqi tədbirlər görülməlidir. Azərbaycan qanunlarında təhqirə yol vermək cinayət məsuliyyəti nəzərdə tutur. O kampaniyanı aparanlar təhqirlə yanaşı, başqa ağır cinayətlərə də yol verirlər. Məsələn, dövlət çevrilişi çağırışları, zorakılığa, çağırış, qətl etməyə çağırışlar onların çıxışlarında yer alır. Bütün bunlar ayrı-ayrılıqda bir neçə maddə üzrə cinayət məsuliyyəti yaradır. Vaxtilə prokurorluq sistemində işləmiş Vidadi İsgəndərlinin necə dələduz, rüşvətxor olduğunu onunla birlikdə işləmiş adamlar dəfələrlə bəyan ediblər. Bu cür adamın çıxıb qanundan, düzgünlükdən danışmağa haqqı yoxdur. Orduxan Teymurxan bir gün də olsun doğma torpağı uğrunda döyüşüb? Xeyr. İndi onun haqqı yoxdur ki, insanları təhqir etsin. Təhqir edirsə, hüquqi cəzasını da almalıdır.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Alatoranda bir şüa

**Zamin HACI**
zaminhaci@gmail.com

"Əziz həmvətənlərim, dovşanlar, sabahımız necə olacaq?"

*(R.Qaraca)*

**Bizim müstəqillik dövrü yazarları arasında bir zarafat var, hansısa gənc yazıçı əllərinə keçəndə ona deyərlər: "Gəl sənə həyatımı danışım, roman yaz". Bu yaxınlarda Rasim Qaraca "Zülmətdə bir alatoran" kitabını mənə oxumağa verəndə, oxuduqca həmin söhbəti düşündüm. Rasim bəy, sadəcə, başqasına danışmayıb, özü-özünə həyatını danışıb və gözəl bir avtobioqrafik roman ortaya qoyub.**

Qaraca kimdir soruşsanız, Azərbaycanın son 20-30 illik ədəbiyyat aləmindən, buradakı çarpışmalardan, qələbə və məğlubiyyətlərdən xəbəriniz yoxdur deyərəm. Ancaq ta soruşursunuzsa, bir neçə kəlmə bəyimizə tərif vuraq.

Rasim Qaraca bizim ədəbiyyata yenilikləri böyründə doğulduğu Kür çayı kimi sellə gətirmiş adamdır. Şirvan, keçmiş adı Əli Bayramlı olan şəhərdə doğulub. Bir neçə dostu ilə "Baca" ədəbi qrupu yaradıb, iddia ediblər ki, ədəbiyyatımızın his-pasını təmizləyəcəklər. Mənim doğulduğum Aran Qarabağın yolu Şirvan yaxınlığından keçir, uzaqdan Şirvan elektrik stansiyasının boruları görünür, həmişə fikirləşmişəm ki, yəqin bunlar Rasim bəyin qurduğu həmin bacalardır. Adam həm də elektrik stansiyasıdır axı. "Alatoran" jurnalının, Azad Yazarlar Ocağının qaranlıq, ya da özünün daha optimist olaraq "alatoranlıq" kimi baxdığı ədəbi mühitimizə saldığı işıqların qədri-qiyməti, məncə, hələ çox sonralar bilinəcək. Mənə qalsa, mən indi də bilirəm.

Sözgəlişi, Rasim bəyin şeirlərini dərc edən ilk mətbu orqanlardan birinin "Yeni Müsavat" olmasını bu romandan öyrəndim. Uzaq 90-ların əvvəlində. Harada o günlər ki, qəzetlər həm də şeir çap edərdi? Niyə biz bu gözəllikdən məhrum olduq? Ümumən müəllif şeirlərini çap etdirməyə yer tapmadığı sovet dövrünü acı formada, bəzən özünün də etiraf elədiyi aqressivliklə xatırlayır. İndiki internet uşaqlarına biz çap olunmağa yer tapmayan şairin dərdini bəlkə izah edə bilmərik. Bir şey də var ki, sovet dövrünün bu qadağaları, yeniliyə, avanqard, modern ədəbiyyatın üzünə qapıların bağlanması da ən çox elə Azərbaycanda idi. Rusiyada, Gürcüstanda, Ukraynada, Baltikyanı ölkələrdə Qaraca üslublu şairlər çox asan çap olunardılar.

Rasim bəy adına uyğun - rəssam olmaq istəyirmiş. Ancaq uşaqlıq arzusuna çata bilməyib. Hətta atası bir gün karandaşlarını sındırıb atıb. Bu da bir qəribəlikdir ki, öz adı da rəngli olan Qarakişi bəy oğlunun arzusuna mane olub. Bəlkə bu səbəbdən "ən az xərcli" sənət növünü - poeziyanı seçən Rasim bəy özünə Qaraca təxəllüsü götürüb? Bu, qara deyil, haradasa işıqlı qaradır. Qaracanın sevimli alatoran sözü kimi. Alatoran da zülmətlə işıq arasında bir mərhələdir. İçində yaşadığımız, bir az uzun çəkən keçid dövrünü alatorandan yaxşı hansı söz ifadə edər? Hərçənd işıqdan zülmətə keçid də alatorandır. Baxır sən nə əldə elədin.

Bu gün Rasim bəyin əldə elədikləri isə çox az görünə bilər. Onun bir şeiri var idi: "Əgər dostun müharibədə həlak olmuşsa". Bax, Azad Yazar Ocağını quran adamların da indi hərəsi bir dərədədir. Rafiq Tağını öldürüblər, Seymur Baycan faktiki mühacirət edib, xeyli yazar AYB-yə əsir düşüb, itkilər çoxdur, saydıqca bitməz. (Onun bir misrası qəfil yadıma düşür: "Mən tənha qadınam" kinoteatrının yanında bıçaqlanan oğlanın göz yaşları yadımdan çıxmır"). Ancaq bunlar komandiri usandırmır, yormur. O bu gün də dayanmadan ədəbiyyatın əsas məqsədlərindən biri olan həqiqət uğrunda savaşmaqdadır. Pafos üçün yazmıram. Şeirimizə yapon üslubunu, sərbəstliyi, moderni gətirmiş adam indi də sənədli roman yazmaqla çoxuna, həmçinin siyasətçilərimizə dərs keçir. Deyir ki, hamınız kitab yazın, bizi qaranlıqdan kitablar çıxardacaq.

90-cı illərdə Rusiyaya dolanışıq ardıyca gedib türk tikinti şirkətlərində tərcüməçi işlədiyi, az qala İnquşetiyada girov götürüləcəyi bölümlər romanda detektiv kimi, həyəcanla oxunur (mən Google-un imkanlarından yararlanıb hətta o hissədəki bir türk mühəndisin fotosunu da tapdım). Qaraca rastlaşdığı insanları, qəlbində işıq yandıranları da unutmur və biz sonda öyrənirik ki, ona bu impulsu görkəmli Azərbaycan filosofu Asif Ata veribmiş. Uzaq 1979-cu ildə Qaracaya yazdığı məktubla.

Rasim bəyin romanı haqda yazımı da elə Asif Atanın o məktubundakı bir məsləhətlə bitirirəm: "Dünyaya, həyata, İnsana (bunu Asif Ata özü böyük hərflə yazıb - Z.H.) heyrət hissini, müqəddəslik duyğusunu ürəyinizdə bəsləyin və qoruyun".

Qızıl sözlərdir. Məncə, Rasim Qaraca bu məsləhətə həmişə əməl edib.




# Ermənistanda müharibə xofu - "Azərbaycan bir yaylım atəşi ilə..."

## Moskvadan İrəvana daha bir tələb gəldi: Ermənistan öz ərazisində üçüncü dövlətin hərbi mövcudluğundan imtina barədə öhdəlik götürməlidir; erməni hərbi ekspertləri və KİV-ləri isə SOS siqnalları verir: "Bunlar pis əlamətlərdir..."

**İki gün öncə BMT-də Ukrayna ilə bağlı Rusiya əleyhinə sənədin müzakirəsi zamanı Ermənistan yenə Rusiyanın yanında, Qərbin isə önündə yer alıb - Ermənistan təmsilçisi sənədin əleyhinə səs verib. Bununla belə, Azərbaycanın bitərəf qaldığı səsvermədə qətnamə qəbul edilib və Moskvanın Ukraynada işğalçı siyasəti növbəti dəfə pislənib.**

Ancaq belə görünür, "yeni Ermənistan"ın Moskvaya bu sədaqət jesti də Moskvanı tam məmnun etməyib. Kreml baş nazir əvəzi Nikol Paşinyandan ona sədaqəti sübut edəcək yeni addımlar tələb edir. Məsələ ondadır ki, Moskva-İrəvan münasibətlərinin sərinləşməsi fonunda məlum olub ki, Kreml Ermənistandan vassal asılılığının sübutu üçün növbəti qarantiya tələb edir. Belə ki, Rusiya XİN rəhbəri Sergey Lavrov deyib ki, "Moskva və İrəvan Ermənistanda xarici hərbçilərin mövcud olmamasını təmin edəcək sənəd üzərində hazırlığı başa çatdırmaq üzərədir".

Lavrov bunu "Komsomolskaya pravda"ya ABŞ-ın Ermənistandakı 3 bioloji laboratoriyası haqqında sualı cavablandırarkən deyib. Onun sözlərinə görə, sənədin hazırlanması prosesində Ermənistanda xarici hərbçilərin olmayacağına təminat veriləcək. "Bu sənəd təhlükə və risklər baxımından şəffaflığı təmin edəcək" - Rusiya baş diplomatı qeyd edib.

Ən maraqlısı da elə bu sənədin təsdiqinin Paşinyan hakimiyyət dönəminə düşməsidir. Bəs qərbyönlülərin mütləq çoxluqda (77%) olduğu yeni parlament həmin sənədi təsdiqləyəcəkmi? Təsdiqləyəcəksə, onda bu, Nikolun qərbyönlü kursuna, ABŞ-la perspektiv əlaqələrə və ümidlərə ciddi zərbə olmazmı? Axı söhbət həm də ABŞ-ın Ermənistandakı və bölgədəki təhlükəsizlik maraqlarından gedir. Məsələ həm də bundadır.

*****

**Armenianreport.com-da getmiş dünənki şərh yazısı bu xüsusda diqqət çəkir. "Yeni Müsavat"ən məlumatına görə, sözügedən sənədi sərt tənqid edən müəllif yazır:** "Lavrovun öhdəliklə bağlı bu açıqlaması o vaxta təsadüf edir ki, bütün Ermənistan Gümrüdəki 102 saylı bazanın hərbçisinin 57 yaşlı erməni qadınını öldürməsini müzakirə edir! Yeri gəlmişkən, həmin hərbçi bazanın ərazisində saxlanılır. Bütün bu baş verənlər fonunda isə Kreml hesab edir ki, ölkənin yeni rəhbərliyi Ermənistanın heç vaxt Rusiya hərbi təsir dairəsindən çıxmayacağı barədə əlavə yazılı öhdəlik götürməlidir. Görünür, Paşinyanın "Ermənistan NATO-ya can atmır" bəyanatı Kreml üçün kifayət deyil. Kremldə sözlərə inanmırlar, orada rəsmi kağız istəyirlər ki, bizim ölkəmizin heç bir baş naziri və ya prezidenti ərazimizdə üçüncü ölkənin qoşunlarını yerləşdirməyi ağlına gətirməyəcək".

**Məqalədə daha sonra deyilir:** "Rusların təlaşı anlaşılandır. Onlar anlayırlar ki, özlərini dalana salıblar. Putin buna görə Paşinyanı seçkilərdə qələbə münasibətilə təbrik eləmir. Beləcə, biz indiki mənzərə ilə üz-üzəyik: AB ilə vizasız rejimə nail olan Gürcüstan AB və NATO-ya üzvlüyə doğru inamla hərəkət edir. Vizasız rejim alan Ukrayna da Rusiyanın müqavimətinə baxmayaraq, eyni istiqamətdə hərəkətdədir. Azərbaycan NATO-ya üzv olmasa da, onunla əməkdaşlığı inkişaf etdirir və NATO-da ən güclü ordulardan birinə sahib olan Türkiyə ilə hərbi müqaviləsi var. Azərbaycan NATO ölkələrindən və İsraildən də silah alır və hər yerdə bizimlə müharibəyə hazırlaşır. Ermənistan NATO-ya doğru getmir. Bunu Rusiya qadağan edib. Yekunda bizim ölkəmiz KTMT-də ilişib qalıb - o blokda ki, orada həmin Rusiya və Belarus Azərbaycanı fəal şəkildə silahlandırır və bəyan edir ki, Azərbaycanın yeni təxribatı zamanı "arsax"ı müdafiə eləməyəcək. Bütün bunlara nə ad qoyaq indi? Vəziyyətdən çıxış yolu nədir? Suallar çox, onlara cavablar isə hələ ki yoxdur. Hərgah, yeni hakimiyyət öhdəlik götürüb ki, onlara cavab verəcək. Hələlik bunu görmürük. Və bu, çox pis əlamətdir".

*****

Ermənilərin Rusiya təlaşı ilə yanaşı, müharibə xofu da artıb. Belə ki, Azərbaycanın Ermənistanla sərhədin Qazax və Ağstafa istiqamətlərində bəzi postlara sərhəd qoşunlarının bölmələrini yerləşdirməsinə İrəvandan təlaşlı reaksiyalar gəlməkdə davam edir. Virtualaz.org xəbər verir ki, bu dəfə 90-cı illərin əvvəllərində Ermənistanın Qarabağa göndərdiyi ilk kəşfiyyat-diversiya batalyonunun komandiri olmuş Vova Vartanov hadisə barədə öz fikirlərini bölüşüb.

**Kəşfiyyatçı Vova deyir ki, hazırda Azərbaycan tərəfində fəal hərəkətlilik müşahidə olunur.** "Onlar təmas xəttinin həm Qarabağ, həm Naxçıvan istiqamətində fəal mühəndis işləri aparır. Habelə qoşunların yerləşdirilməsi məsələsində müəyyən dəyişiklik edilir. Onların sərhəd qoşunları çox maraqlıdır, bizimkilərdən xeyli fərqlidir. Hazırda sərhəd qoşunları sərhədin Qazax istiqamətində yerləşdirilir. Bu isə o deməkdir ki, onlar bir briqadanı Ermənistanla sərhəddən götürüb zərurət yaranarsa Qarabağ istiqamətinə yönəldəcəklər" - Vova Vartanov deyib.

Erməni hərbi ekspert Van Ambarsumyan isə hesab edir ki, Azərbaycanla Ermənistan arasında balans həm hərbi, həm siyasi planda artıq əlçatmaz həddə qədər pozulub. "Bu, Ermənistanın Qarabağdakı vəziyyətinə olduqca mənfi təsir edəcək", - deyə o qeyd edib.

**O, diqqəti buna cəlb edib ki, Ermənistanın yeni rəhbərliyinin siyasəti ucbatından KTMT baş katibi vəzifəsinə Belarus nümayəndəsi Stanislav Zasın təyin edilməsi təhlükəsi yaranıb.** "Onun namizədliyi prezident Aleksandr Lukaşenko tərəfindən dəstəklənib. General Zas azərbaycanpərəst mövqeyi ilə tanınır. Xatırladıram ki, o Bakıda Ali Hərbi Məktəbi bitirib. Azərbaycanın prezidenti, müdafiə naziri və Silahlı Qüvvələrin Baş qərargah rəisi ilə çox sıx və dostluq əlaqələrinə malikdir. O, hətta Azərbaycana Belarus silahlarının, o cümlədən "Polonez" raket sistemlərinin təchizatının təşəbbüskarlarından və vasitəçilərindən biridir" - Ambarsumyan təlaşla bildirib.

Erməni hərbi ekspertin dəyərləndirmələrinə görə, bu silah təchizatı ilə Azərbaycanla Ermənistan arasında qüvvələr balansı əlçatmaz səviyyədə pozulub. Çünki dünyada "Polonez"lərin analoqu demək olar ki, mövcud deyil. Ambarsumyan bildirib ki, həmin raket sistemləri praktiki olaraq ən yeni HHM sistemləri üçün əlçatmazdır, hətta bu sistemlərin özünə ciddi təhdid yaradır. "Çünki Azərbaycan "Polonez"dən bir yaylım atəşi açmaqla eyni zamanda 8 taktiki və strateji hədəfi, o cümlədən Ermənistanın silahlanmasında yer alan S-300 rus zenit-raket komplekslərini məhv edə bilər. Hava Hücumundan Müdafiə sistemləri üçün bizim silahlanmamızda yer alan "İsgəndər-E" operativ-taktiki raket kompleksinə qarşı müqavimət göstərmək daha sadədir, nəinki "Polonez"ə qarşı" - Ambarsumyan deyib.

Erməni ekspert əlavə edib ki, Azərbaycan artıq "İsgəndər"lərə cavab olaraq İsraildən müasir "LORA" operativ-taktiki raketlərini alıb. Həmin raketlərin hədəfi vurma məsafəsi 400 kilometrə qədərdir. Bəs ümumiyyətlə, erməni tərəfinin Azərbaycan qarşısında hansısa üstünlüyü varmı? Ambarsumyan bu suala cavab verməkdə çətinlik çəkib.

Onun sözlərinə görə, erməni tərəfində yaxşı hazırlıq keçmiş kadr və zabit heyəti olub. Amma KTMT baş katibi Yuri Xaçaturovla bağlı qalmaqal bu kadr və zabit heyətinin nüfuzuna zərbə vurub. Ambarsumyana görə, Qarabağdakı erməni hərbi birləşmələrinin şəxsi heyətinin "yüksək döyüş ruhu" var, amma bu texniki və say üstünlüyünə malik olan düşmənə qarşı yetərli deyil. "Bizim texnika dərin modernizasiyaya ehtiyac duyur. Məsələn, tanklarımız gecə vaxtı işə yaramır. Onlar düşmən tankları və hətta müasir tank əleyhinə raket kompleksləri üçün asan hədəfə çevrilirlər" - erməni hərbi ekspert sonda bildirib.

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018

# Mübariz İbrahimov və Ramil Səfərova qatil deyənlərin beyinlərini belə yuyurlar - sensasion təfərrüat

## Ermənistanda sosial şəbəkələrdə bu və ya digər qruplar terrorçu Varujan Karapetyana "cinayətkar və qatil" deyərmi?...

**Gözümüzün içinə baxa-baxa seyid nəslindən olan Mübariz İbrahimovu "cinayətkar və qatil" adlandırırlar. Biriləri "şəhid olmaq qəhrəmanlıq" deyil, iddiasını əsaslandırmağa çalışır. Təbii ki, digər bir milli qəhrəmanımız Ramil Səfərovu da ittiham edirlər. Millətimiz üçün rəmzə çevirmiş bu şəxslər sosial şəbəkələrdə hədəfə çevrilib. Sapı özümüzdən olan baltalar hücumdadır. Vahid mərkəzdən idarə olunurlar, hücum sistemlidir, təsadüfi xarakter daşımır. Niyə zabit Ramil Səfərovu, xüsusi təyinatlımız Mübariz İbrahimovu gözdən salmaq üçün bu qədər əldən-ayaqdan gedirlər? Bu işin arxasında kimlər dayanır? Hansı məqsədi güdürlər? Bu barədə az sonra.**



İndi isə mövzunun önəmini vurğulamaq üçün bir məqama toxunmaq istərdim. Yazılarımın birində yazmışdım ki, Ramil Səfərov və Mübariz İbrahimovun göstərdiyi qəhrəmanlıqlar Ermənistan-Azərbaycan savaşında sınma nöqtəsi effekti yaratdı və Azərbaycan ordusu cəbhə xəttində köklü şəkildə psixoloji üstünlük əldə etdi. Aprel döyüşləri bu psixoloji üstünlüyün nə qədər böyük olduğunu bütün çılpaqlığı ilə ortaya qoydu. Şübhəsiz ki, beynəlxalq şərtlər mane olmasaydı Azərbaycan ordusu qısa zaman kəsiyində Qarabağ savaşında ciddi dəyişikliklərə nail olacaqdı. Ermənilərə havadar çıxan beynəlxalq güc mərkəzlərini qarşımızda gördük. Daha çox adı hallanan Rusiya o mərkəzlərdən, sadəcə, biri idi.

Bəli, Ramil Səfərov və Mübariz İbrahimovun igidliyi Azərbaycan xalqına yeni nəfəs və ruh verdi. Məkrli qüvvələrin məğlubiyyətə sürüklədiyi milləti qələbəyə doğru istiqamətləndirdi.

İndi isə onları aşağılamağa çalışırlar. İndimi? Yox, bu proses çoxdan başlayıb. Ramil Səfərov 31 avqust 2012-ci ildə Bakıya bir dustaq, məhkum kimi gətirilirdi; ölkəmizə çatmadan, onu gətirən təyyarə havada olarkən Azərbaycan prezidentinin göstərişi ilə əfv olundu. Xalq da, dövlət də mübariz oğluna ehtiram göstərdi. Və az qala bütün dünya Azərbaycanın üzərinə yeridi. Erməni və anti-Azərbaycan şəbəkəsinin ölkəmizdəki uzantıları da həmən fəallaşdı. Onları da xatırladım. Zərdüşt Əlizadə, Xədicə İsmayıl, Fuad Ağayev, Əkrəm Əylisli...

**Sonuncunun bu məsələyə münasibəti belə olmuşdu:** "Mənim qəhrəmanlıq haqqında öz fikirlərim var, bu məsələyə yanaşmam fərqlidir". Daha sonra isə "Daş yuxular" romanı üzə çıxdı. "Ramil Səfərovun əfv olunmasından sonra həmin əsəri çap etdirməyə qərar verdim", - yazıçı beləcə də dedi. Yəni bu olaya etiraz olaraq "Daş yuxular" ortaya qoydum. Yadıma gəlir, həmin romanla bağlı Amerika mətbuatında geniş bir yazı getmişdi. Həmin yazıda deyilirdi ki, Nobel mükafatı alan Orxan Pamuk erməni genosidi haqqında bəyanat verib. Ancaq Əkrəm Əylisli ilk türk (məhz türk yazılmışdı) yazıçıdır ki, bu düşüncəni öz əsərində ortaya qoydu...

Bəziləri adıçəkilən qəhrəmanlara həqarəti özlərinin guya sülhpərvər olması ilə ört-basdır etməyə çalışır. Mən də sülh tərəfdarıyam. Heç kimin də ölməsini və ya öldürülməsini istəmirəm. Ancaq bizə güllə atana gül çələngi ərməğan edə bilərikmi?

Bir daha yaddaşımızı təzələyək, 1954-cü il doğumlu Varujan Karapetyan "Ermənistanın Azadlığı Uğrunda Erməni gizli Ordusu"nun - ("Armenian Secret Army for the Liberation of Armenia") (ASALA) - Fransa bölümünün lideri olub. O, 1983-cü ildə Türkiyə Hava Yollarına məxsus təyyarədə partlayış törətdi. 8 nəfər öldü. Onlardan 4-ü Fransa, 2-si Türkiyə, 1-i ABŞ və 1 nəfəri İsveç vətəndaşları idi. Ömürlük həbs olundu. Ancaq 1990-cı illərin sonunda Ermənistanda 1 milyondan artıq insan bu terrorçunun əfv olunması üçün imza topladı. Ermənistan prezidenti Robert Köçəryan həyatının 17 ilini həbsxanada keçirən Karapetyanın 2001-ci ildə həbsxanadan Ermənistana gətirilməsini təmin etdi. O, Ermənistanda ən yüksək səviyyədə-ölkənin baş naziri Andranik Markaryan tərəfindən qarşılandı. İrəvanın bələdiyyə başçısı Robert Nazaryan isə Karapetyanı iş və evlə təmin etdi. Hazırda da Ermənistanda kef içində yaşayır.

Necə olur ki, 8 adamın ölümünə, 60 adamın yaralanmasına bais olan terrorçunun müdafiəsi üçün "humanist" Ermənistanda 1 milyon nəfərdən çox adam imza verir? Bu, Ermənistan əhalisinin üçdə biri deməkdir. Niyə ermənilər bu terrorçuya qucaq açanda doğru olur, biz Ramil Səfərovu bağrımıza basanda qəddar oluruq.

Ermənistanda sosial şəbəkələrdə bu və ya digər qruplar terrorçu Varujan Karapetyana "cinayətkar və qatil" deyərmi?...

Başqa bir məqam. Gürcüstan, Dağıstan, İran, Türkiyə, Azərbaycan və bu ölkələrin həndəvərində olan Ermənistan. Adını sadaladığım ölkələrin hamısında müxtəlif xalqlar birgə yaşayır. Ermənistan dövlətinin yaydığı rəsmi statistikaya görə, Ermənistan əhalisinin 99,9 faizi ermənidir. Çünki ermənilər çoxluqda olduqda digər xalqlara qarşı etnik təmizləmə siyasəti aparır. Ermənistanda, elə ermənilərin nəzarətində olan Dağlıq Qarabağda da biz bu siyasətin nəticəsini aydın görürük. Dünyanın heç bir ölkəsində 99,9 faizlik göstərici qeydə alınmayıb. Belə bir nəticə almaq üçün etnik təmizləmə aparmaq şərtdir.

Heç faşist Almaniyasında da Hitler 99,9 faizlik nəticə əldə edə bilməmişdi. Həqiqət budur ki, Ermənistan faşizmə yuvarlanmış bir ölkədir. Qərbin siyasi dairələrində söz sahibi olan birisi ötəri də olsa bu mövzuya toxunurmu? Yox, elə bil ki, qurbağa gölünə daş atılıb. Ermənistan dövlətinin və xalqının bütün mahiyyətini ortaya qoyan bu kimi faktların üstündən həmişə sükutla keçiblər. Əvəzində Türkiyəyə, Azərbaycana buynuz atıblar. Qərb yəhudilərdən ərəblərə, ermənilərdən isə türklərə qarşı istifadə etməkdədir. Erməni məsələsində Rusiya da eyni mövqedən, amma öz çıxarları baxımından çıxış edir.

Məhz belə bir fonda Azərbaycanda bəlli bir qrup Ramil Səfərov və Mübariz İbrahimova qənim kəsilib. Niyə? Bu barədə də çox yazmışam. Təəssüf ki, bir daha yazmaq zorundayam. Söhbət ondan gedir ki, Qərbin bu və ya digər mərkəzlərindən Azərbaycana axan qrantlar xüsusən gənclər arasında bu kimi əhval-ruhiyyənin yayılmasına xidmət edir. Fikir vermisizmi, Qərbdən qrant alanlar arasında milli təəssübkeşliyi olana tək-tük hallarda rast gəlmək olar. Adətən Qərb qrantı kimlərə verir? O kəslər ki, etnik, dini və ya cinsi azlıqları təmsil edir, onlara qucaq açırlar. Bu kimi mərkəzlərin kosmopolit düşüncəli şəxslərə xüsusi simpatiyası var. Şübhəsiz ki, bu maliyyə dəstəyi müəyyən öhdəliklərin yerinə yetirilməsi şərti ilə verilir. O şərtlərdən biri də yüksəlişdə olan milli ruhu sarsıtmağa hesablanıb. Görünən odur ki, aprel döyüşləri zamanı ortaya qoyulan milli iradə Qərbin ürəyincə olmayıb. Bu işi əvvəlki axarına qaytarmaq üçün qran mərkəzləri hərəkətə keçib.

Bu işdə xüsusi canfəşanlıq edən yenə "People in Need" təşkilatıdır. Bu təşkilatın adı ilk dəfə 2014-cü ilin yanvarında Batumidə keçirilən Vətəndaş Cəmiyyəti Forumundan sonra Azərbaycanda hallanmağa başladı. O vaxt "Yeni Müsavat"la bu təşkilat arasındakı dartışma ölkənin gündəminə oturdu.

Qəzet bu təşkilatı ermənilərə xüsusi simpatiya bəsləməkdə suçladı. Araşdırmalar zamanı bəlli oldu ki, 1988-ci ildə Spitak zəlzələsindəki qurbanlara yardım məqsədilə o vaxt mövcud olan Çexslovakiyada təşkilat yaradılıb. Həmin təşkilat Ermənistana, daha sonra isə Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağa yardım edib.



Qənimət Zahid və Natiq Adilov Yeromir Ştetina ilə birlikdə

Bu işdə xüsusi fəallıq göstərən Yaromir Ştetina (Jaromir Stetina) 1992-ci ildə Praqada "People in Need" adlı qeyri-hökumət təşkilatını yaratdı və onun həmtəsisçisi oldu. Təşkilat rəsmən etiraf edir ki, "People in Need" məhz Spitak zəlzələsi zamanı formalaşmış qrupun əsasında formalaşıb.

O vaxt bu məsələ ilə bağlı silsilə yazılar yazdım. Konkret faktlar əsasında bu təşkilatın ermənipərəstliyini ortaya qoyduq. Həmin yazılara cavab olaraq "People in Need" təşkilatı bəyanat verdi. Təşkilatın Şərqi Avropa proqramının koordinatoru İvana Skalova: " **"People in Need"in qurucularından bəziləri təşkilat təsis olunmamışdan 4 il əvvəl, yəni 1988-ci ildə Ermənistanda baş vermiş zəlzələ qurbanlarına humanitar yardım göstərən qrupa cəlb olunublarmış. Biz çox təəssüf edirik ki, bəzi Azərbaycan Kütləvi İnformasiya Vasitələri tərəfindən bu fakt bizim QHT-nin ermənipərəst olmasını əsaslandırmaq üçün istifadə olunur".**

Bu bəyanata cavab olaraq bu təşkilatın həmtəsisçisi olan Yaromir Ştetina-nın videoçıxışlarını ortaya qoyduq. Rus dilində kəskin erməni ləhcəsi ilə danışan Yaromir Ştetinanın Azərbaycanın milli qəhrəmanı Əlif Hacıyev haqqında təhqiramiz ifadələr işlətməsinə oxucularımız özləri şahid oldu. Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınması üçün xüsusi fəallığı ilə seçilən bu şəxs ermənidən daha çox erməni olan birisidir.

O vaxt bu məsələlərə onun mövqeyini öyrənmək üçün ingilis dilində suallar hazırlayıb, göndərdim. Cavab gəlmədi. Yeri gəlmişkən, o, 2014-cü ildən Avropa Parlamentində Çexiyanı təmsil edib. Orada da Ermənistana və Dağlıq Qarabağa açıq şəkildə dəstək verir. Təbii ki, anti-Azərbaycan mövqeyi ilə seçilən birisidir. Amma... buna baxmayaraq bir çox "vətənpərvər" soydaşımız onun sağ-solunda fırlanır. Millətimizə yağı düşmən olan bu kəslə Əli Kərimliyə yaxın olan şəxslər də sıx əlaqədədir. Ötən il Azərbaycan mətbuatında Qənimət Zahid və Natiq Ədilovun Yaromir Ştetin-lə Avropa Parlamentində görüşünü əks etdirən foto yayıldı. O vaxt yazdıqlarımı bir daha təkrar edirəm: **"Görün, bizim jurnalistlər nə gündədir? Yağı düşmənimizə yalmanırlar. Adını çəkdiklərim Əli Kərimlinin yaxın adamlarıdır. AXCP sədri bu foto ilə bağlı bir kəlmə açıqlama verdimi? Vermədi. "Azadlıq" qəzetində çalışan və gecə-gündüz "millət, dövlət, Azərbaycan..." bağıran bircə yazar bu həngaməyə etiraz etdimi? Etmədi... Azərbaycan jurnalistikasında şəxsiyyət problemi var".**

Başqa bir misal, "Meydan" TV bir neçə il əvvəl ingilis dilində bir yazı vermişdi. Müəllif təklif edirdi ki, Azərbaycan dövləti Türkiyədə erməni soyqırımının olması iddiasını qəbul etməlidir. Düşünürsüz, bunu bir azərbaycanlı yazır. Aydındır ki, bu kimi yazılar daha çox qrant almağa hesablanır. Və bu kimi meyllərlə təəssüf ki, tez-tez rastlaşırıq.

Hazırda Ramil Səfərov və Mübariz İbrahimova qarşı aparılan iyrənc təşviqat da eyni sistem əsasında hərəkətə gətirilib. Biz xalq olaraq bu kimi meyllərə qarşı ayıq-sayıq olmalıyıq. Milli rəmzə çevrilmiş qəhrəmanları qorumaq hər birimiz üçün şərəf məsələsi olmalıdır.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018

**2018-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan əhalisinin sayı 69,645 min nəfər artıb.**



# Əhalimiz Gürcüstandan 2, Ermənistandan isə 3 dəfə çoxdur

## Təəssüf ki, bəzi qorxulu statistikalar da var...

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Noyabr ayının 1-nə respublikada əhalisinin sayı 9 mln. 967,73 min nəfər təşkil edir.

Ölkədə əhalinin sıxlığı bir kvadrat kilometrə 115 nəfərdir.

Əhalinin 52,9%-i şəhər, 47,1%-i isə kənd sakinləridir. Əhalinin 49,9%-ni kişilər, 50,1%-ni qadınlar təşkil edir.

Azərbaycanda hər 1000 kişiyə orta hesabla 1005 qadın düşür.

Yanvar-oktyabr aylarında ölkə üzrə 116,365 min doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,2 təşkil edib. Doğulan körpələrin 53,3%-i oğlan, 46,7%-i isə qız uşaqlarından ibarətdir. Körpələrin 2,236 mini əkiz, 96-sı isə üçəm doğulanlardır.

Qeyd olunan dövrdə 48,186 min ölüm halı qeydə alınıb və əhalinin hər 1 min nəfərinə ölənlərin sayı 5,9 təşkil edib.

Azərbaycan növbəti yüz il ərzində demoqrafik göstəricilərə görə Cənubi Qafqazda lider mövqeyini qoruyacaq. Bunu ötən ay BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin baş müşaviri Fərid Babayev deyib. Onun sözlərinə görə, Azərbaycan demoqrafik inkişaf baxımından Cənub Qafqazda ən dinamik ölkədir və ölkə əhalisi Gürcüstandan iki dəfə, Ermənistandan isə 3 dəfə çoxdur.

F.Babayev vurğulayıb ki, proqnozlara əsasən, yaxın 30 il ərzində Azərbaycan əhalisi hər onillik üçün 500 mindən çox artacaq. 21-ci əsr ərzində Azərbaycan əhalisi 3 milyondan çox artacaq, bu artımın 70 faizi isə əsrin birinci yarısının payına düşəcək. Onun sözlərinə görə, Azərbaycan əhalisinin artımı əsasən təbii artım hesabına təmin olunur. F.Babayev əhali sayının artmasına xarici miqrasiyanın təsirini kifayət qədər mühüm hesab etmədiyini deyib. Onun fikrincə, son onilliklərdə Azərbaycan əmək qabiliyyətli əhalinin sayı sürətlə artır. BMT-nin orta müddətli proqnozlarına əsasən, bu cür artım sayəsində 2018-ci ilədək 20-59 yaş arası qadınların və 20-63 yaş arası kişilərin sayı 6 milyon nəfərə çatacaq. F.Babayevin sözlərinə görə, 21-ci əsrin birinci yarısında Azərbaycanda 18-20 yaş arasında əhali kateqoriyasının əmək bazarına çıxması ilə işçi qüvvəsi artımı müşahidə olunacaq.

Təəssüf ki, rəsmi statistikada boşanmalarla bağlı vəziyyət çox pisdir. 10 ay ərzində ölkədə qeydiyyat şöbələri tərəfindən 50,822 min nikah (ötən ilin analoji dövrü ilə müqayisədə azalma 2,3% - İF) və 12,396 min boşanma halı qeydə alınıb (artım 1,7% - İF).

"Son 10 ayda 50882 evlənmə, 12396 boşanma qeydə alınıb". Bu statistik məlumatları isə hüquqşünas Ələsgər Məmmədli açıqlayıb. Ə.Məmmədli qeyd edib ki, 4 il öncə bir proqrama dəvət olunub.

"O zaman xırda bir araşdırma aparmış, ölkədə boşanmanın çox yüksək sürətlə artdığı, evliliyə nisbətdə boşanmanın 13,5% olduğunu görmüşdüm. Bu gün tənbəllik etməyib, son 10 ilin statistikasını tapıb, qarşılaşdırdım. Statistika çox ciddi artıb və trend sürətlə yüksəlməkdədir. 2008-ci ildə ölkədə 79964 evlilik, 7933 boşanma qeydə alınıb. Yəni boşanmanın evliliyə nisbəti 9,92% olub. 2018-ci ildə bu nisbət 24,36%-dək yüksəlib.

10 il öncə hər qurulan 10 ailənin 1-i boşanma ilə nəticələnirdisə, bu il hər 4 ailənin biri boşanma ilə sonlanıb. Qısacası, 10 ildə boşanma 146% artıb. İllərə görə də artımın sürətini aydın görmək mümkündür.

2008-9,92%
2009- 9,97%
2010- 11,44%
2011- 12,19%
2012- 14,02%
2013- 14,23%
2014- 13,50%
2015- 18,55%
2016- 19,64%
2017- 23,06%
2018- 24,36%

Evliliyin sayı 2007-ci ildə 81738-dən, 2017-ci ildə 62923-dək, yəni 23,01% geriləyib. Boşanma 2008-də 7933-dən, 2017-də 14514-dək yəni 83% yüksəlib.

Əslində ciddi araşdırma mövzuları var. Sosioloqlar, psixoloqlar bunu çoxyönlü araşdırıb, səbəbləri sıralamalı, toplumu bilgiləndirməlidir. Məsələn, mənim üçün maraqlıdır internet və sosial şəbəkə istifadəsi nisbətinin son 10 ildə artımı ilə boşanma nisbətinin artımı arasında bir əlaqə varmı, varsa nədir?"

❑ **"Yeni Müsavat"**

# Siyasi partiyalar Yeni ili piket və ziyarətlə qeyd edəcək

## Partiyalar ilsonu toplantı keçirəcəklər, lakin başqa planları olan da var

**Artıq Yeni ilin gəlməsinə iki həftədən də az vaxt qalıb. Bakı küçələrində iri mağazalarda, müxtəlif ictimai-iaşə obyektlərində yolkalar qurulub, bayramla əlaqədar bəzəklər asılıb. Eyni zamanda yayılan məlumatlara görə, bayram günü şəhərin mərkəzində müxtəlif tədbirlər keçirilib, şənliklər təşkil olunacaq.**



Lakin bütün bunlarla yanaşı, Yeni ili milli bayram hesab etmədikləri üçün qeyd etməyənlər də var.

"Yeni Müsavat" olaraq siyasi partiyalardan soruşduq ki, onlar Yeni ili partiya olaraq qeyd edəcəklərmi?

**AG Partiyanın lideri Tural Abbaslı bildirdi ki, partiya olaraq Yeni ili xüsusi qaydada qeyd etməyəcəklər:** "Hər bir kəs yəqin ki, bayramı öz evində, ailəsi ilə birlikdə qeyd edəcək. Yeni il, sadəcə olaraq, təqvim ilidir. Əslində isə türklər üçün yeni il mart ayında, Novruz bayramı ilə başlayır. Lakin partiya olaraq hər hansı bir tədbir, konfrans keçirmək niyyətində deyilik. Ümumilikdə, Yeni ilin keçirilməsinin əleyhinə deyiləm. İslamda əsasən iki bayram var ki, onlar Ramazan və Qurban bayramlarıdır. Lakin Yeni il də islami qaydalara zidd olmayan formada qeyd edilirsə, bunun əleyhinə deyiləm. Artıq bu bayram da ölkədə, dünyada bir adətə çevrilib".

**VİP sədri Əli Əliyev bildirib ki, onlar bu bayramı xüsusi qaydada qeyd etməyəcəklər:** "Yeni il təqvim ilinin dəyişməsidir. Hər il ilin yekunları ilə bağlı toplaşıb, həm 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, həm də Yeni il bayramını qeyd edirik. Partiyada yolka və digər bu kimi bəzəklər qurmamışıq. Lakin sonuncu ongünlükdə kiçik, simvolik yolkamız olacaq. Ümumilikdə, Yeni ili geniş miqyasda qeyd etməyəcəyik. Əgər Yeni il İsa peyğəmbərin doğumu ilə bağlıdırsa, o, bizim tərəfimizdən peyğəmbər kimi qəbul olunur. Ona görə də məsələyə dini bayram kimi yanaşırlarsa, burada qeyri-adi heç nə yoxdur. Biz bunu təqvim dəyişməsi kimi qeyd edirik".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami da bildirib ki, Yeni ili xüsusi formada qeyd etmirlər:** "Yeni ili partiya olaraq qeyd etmirik. Sadəcə olaraq, bəlli bir sayla toplanıb bayramlaşırıq. Xalqı da hər zamankı kimi partiya başqanı İqbal Ağazadə təbrik edir. Şam ağacına gəlincə isə bəzəməmişik".

**KXCP sədrinin müavini Xəzər Teyyublu söyləyib ki, onlar 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edəcəklər:** "Bu bayram hələ Elçibəy hakimiyyəti dövründə qəbul edilmiş qərar əsasında qeyd olunur. Hər il də ənənəvi olaraq xalqımız həmrəylik günü ilə bərabər, həm də Yeni il bayramını qeyd edir. Biz də vətəndaş olaraq çalışırıq ki, bayramları keçirək. Partiya olaraq da dekabrın 31-də həmrəylik günü ilə bağlı Fəxri Xiyabana yollanıb, Əbülfəz Elçibəyin məzarını ziyarət etməyi düşünürük. Hərçənd ki, son zamanlar siyasi partiyaların Elçibəyin məzarını ziyarət etmələrinə maneələr yaradılır. Buna baxmayaraq, çalışacağıq ziyarətimizi edək. Ziyarətdən sonra isə bu bayram münasibətilə İranın Bakıdakı səfirliyi qarşısında piket nəzərdə tutmuşuq. Bu piketdə 30 milyonluq dünya azərbaycanlılarına həmrəylik nümayiş etdirəcəyik. Hər kəs kimi çalışacağıq ki, ailəmizlə birlikdə də həm Yeni ili, həm də 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edək. Yəni Yeni ilin keçirilməsinə pis baxmırıq və burada fərqli nə isə görmürük".

**ADP sədrinin müavini Həsrət Rüstəmov söyləyib ki, Yeni il partiya olaraq hər hansı bir tədbir şəklində keçirməyiblər:** "Yeni ili partiya olaraq hər hansı tədbir şəklində keçirməyimiz yadıma gəlmir. Adətən 31 dekabr həmrəylik gününə aid tədbir keçirir və ya bu bayramı hər hansı formada qeyd edirik. Bu il də istisna deyil. Yeni təqvim ilinin başlanmasını xüsusi olaraq qeyd etməyəcəyik. Amma İdarə Heyətinin bu ilin sonuna düşən toplantısında il ərzində baş vermiş ən mühüm siyasi hadisələr bir daha nəzərdən keçiriləcək və yeni il üçün partiyanın vəzifələrinə dair müzakirələr aparılacaq".

**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli bildirib ki, onlar hər il partiya olaraq Yeni ili qeyd edirlər:** "Həmrəylik və Yeni il günü ilə bağlı partiyanın qərargahında bayram süfrəsi açılacaq. Biz bu ənənəni hər il edirik. Onu da qeyd edim ki, yolkamız da var, lakin hələ, qurmamışıq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Rektor işçilərə maaşı qədər mükafat verdi

**Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ştatda olan bütün işçilərə maaşları həcmində pul mükafatları verilib.**

Bu barədə təhsil ocağının mətbuat xidmətindən məlumat verilib. AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədovanın imzaladığı əmrə əsasən, universitetin bütün əməkdaşlarına onların maddi rifah halının yaxşılaşdırılması üçün maddi yardım edilib.

Məlumat üçün qeyd edək ki, AzMİU-nun rektoru işçilərin sosial vəziyyətini yaxşılaşdırmaq üçün hər il Yeni il öncəsi və Novruz bayramı ərəfəsində universitetin professor-müəllim heyətindən tutmuş xidmətedici heyətdə çalışan bütün əməkdaşlarına maddi yardımlar olunması üçün əmr imzalayır.

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Belarus prezidenti Aleksandr Lukaşenkonun Dağlıq Qarabağ mövzusunda söylədiyi fikirlər son günlərin müzakirə mövzularından biridir. Onun xüsusən də Ermənistanın keçmiş prezidenti Serj Sərkisyana kommunikasiyaların və sərhədlərin açılması qarşılığında işğal altındakı 5 rayonu qeyd-şərtsiz boşaltmağı təklif eləməsi, Qarabağ ermənilərinin təhlükəsizliyi üçün azad edilən ərazilərə Rusiya-Belarus qoşunlarını yeritməyə hazır olduğunu deməsi diqqət çəkib.**



# Ermənistanın yeni rəhbərliyinin Qarabağ dilemması

## Nikol Paşinyan qəliz seçimlə üz-üzə: Dağlıq Qarabağ məsələsində sələflərinin yoluna davam etmək, yoxsa...; ekspertlərdən 2019 proqnozları




Bəzi iddialara görə, bu açıqlamalar həm də anons xarakteri daşıyır. Hətta 5 rayon məsələsinin tezliklə, daha doğrusu, mart ayında təzədən gündəməqayıda biləcəyi, köhnə həll prinsiplərinin danışıqlar masasına qoyulacağı barədə iddialar səslənib. Onu da nəzərə alsaq ki, 2019-cu illə bağlı Dağlıq Qarabağ mövzusunda nikbin proqnozlar artıb, o zaman sual ortaya çıxır: gələn il Dağlıq Qarabağla bağlı köhnə danışıqlara və ya həll prinsiplərinə qayıdış nə dərəcədə inandırıcı görünür?

*****

**“Dağlıq Qarabağla bağlı gündəmə gətirilən kompromis variantı Bakı birdəfəlik rədd edib”. “Yeni Müsavat”ın məlumatına görə, bu sözləri axar.az-a sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloq Belarus lideri Aleksandr Lukaşenkonun Qarabağa dair bəyanatının Ermənistanın qeyri-konstruktiv mövqeyinin ifşası baxımından əhəmiyyətli hesab etdiyini düşünür.**

“Paşinyanın KTMT-dəki son uğursuz siyasətindən sonra üzv dövlətlərin Ermənistanla bağlı mövqeyində sərtlik müşahidə olunur. Xüsusilə də Minskin Dağlıq Qarabağ istiqamətində İrəvana təzyiqləri diqqətdən yayınmır” deyən ekspert, bununla belə, sözügedən bəyanatdakı bəzi məqamlarla razılaşmır: “Danışıqlar və Minsk prosesində dəfələrlə qeyd edilib ki, sülh olacağı və Azərbaycan qəbul edəcəyi təqdirdə bölgəyə sülhməramlı qüvvələr yeridilə bilər. Sülhməramlı missiya isə Azərbaycana yaxın olan İran, Türkiyə və həmsədr dövlətlərin qoşunlarından ibarət ola bilməz. Bu, illərdir danışıqlar prosesində təsdiq edilmiş bir faktdır. Yəni Dağlıq Qarabağa sülhməramlı qüvvələr adı altında Belarus və Rusiyanın qoşunları heç cür yeridilə bilməz. Bakı irəli sürülən bu variantı birdəfəlik rədd edib”.

**Politoloq onu da vurğulayıb ki, Dağlıq Qarabağa keçici statusun verilməsi və yaxud bölgəyə sülhməramlı qüvvələrin yeridilməsi heç cür Bakının mövqeyinə uyğun deyil:** “Sülh olacağı təqdirdə Dağlıq Qarabağın statusunu Azərbaycan özü müəyyənləşdirəcək. Bakı İrəvana heç bir güzəştə getməyəcək, çünki Azərbaycanın kompromis limiti çoxdan bitib”.

**Xatırladaq ki, Lukaşenko Rusiyanın media nümayəndələri ilə görüşü zamanı Qarabağ münaqişəsinin həllinə dair Sərkisyanla söhbətinin məzmununu açıqlayıb. Sitat:** “Açıq şəkildə dedim: Serj, 5 rayonu geri qaytar. Qaytarmamaq üçün nə kimi səbəb ola bilər, axı onlar boş qalıb. O isə dedi: ”əgər qaytarsam, onlar yolu kəsəcəklər, Qarabağı tutacaqlar" və sair. Biz isə Putinlə açıq şəkildə söz verdik ki, belə olan halda biz öz qoşunlarımızı yeridər və buna imkan verməzik. Sərkisyan isə dedi: “Yox, biz buna getməyəcəyik, bunu istəmirik”".

*****

Lukaşenkonun söylədikləri, əslinə qalsa, qeyri-adi sayılmaz. Fakt budur ki, işğalçı Ermənistanda 20 il hakimiyyətdə olan Qarabağ klanı heç vaxt ədalətli sülhə hazır olmayıb, bu yöndə əlini ağdan-qaraya vurmayıb, yalnız erməni xalqına şirin vədlər verib. Çünki “müharibə partiyası” olaraq, kiçicik “güzəşti” belə öz hakimiyyətinə təhlükə sayıb. Nəticədə işğalçı ölkənin blokadası ilbəil güclənib, ölkədən kütləvi köç sürətlənib, Ermənistan Rusiyadan daha güclü siyasi-hərbi və iqtisadi-maliyyə asılılığına düşərək, olan-qalan müstəqilliyini də, faktiki, itirib.

İndi Nikol Paşinyan bu asılılığı azaltmaq və Ermənistanı guya normal dövlətə çevirmək niyyətindədir. Ancaq heç bir şübhə yox ki, Dağlıq Qarabağ məsələsində qonşu Azərbaycanla, Türkiyə ilə tezliklə anlaşma olmazsa, sərhədlər və kommunikasiyalar tezliklə açılmazsa, nəinki Rusiyadan siyasi-iqtisadi asılılıq azalmayacaq, bütövlükdə nəzərdə tutulan iqtisadi islahatlar boşa çıxacaq.

Azərbaycanla anlaşmaq üçünsə ilk növbədə işğalçı siyasət durdurulmalıdır. Paşinyan sələfləri kimi, tezliklə bunu anlayacaq. Əks halda, islahatlara daha bir real təhlükə - müharibə riski ilə üzləşməli olacaq. Ermənistanın inqilabçı baş nazirinin hansı yolu seçəcəyi yaxın aylarda bilinəcək. Hər halda, Paşinyan “hərb partiyası”nı təmsil eləmir, Qarabağ savaşında da iştirakçı olmayıb. Bu isə ona Azərbaycanla sülh danışıqlarını müəyyən mənada daha inamla və arxayın aparmaq şansı verir.

Hər halda, kövrək də olsa, ümid qalır ki, Nikol Paşinyan Qarabağ məsələsində sələflərinin üstünlük verdiyi və ölkəni çıxılmaza soxan dalan yolundan imtina edəcək. Bir şeyi əminliklə söyləmək olar ki, Ermənistanın yeni rəhbərliyi Qarabağla bağlı ağır bir seçim qarşısındadır. Bu seçimdən ən əvvəl Ermənistanın inkişafı, taleyi, onun ağır izolyasiyadan çıxıb-çıxmayacağı, nəhayət, Paşinyanın öz xalqına verdiyi vədlərin aqibəti asılıdır.

**Politoloq Fikrət Sadıqov hesab edir ki, 2019-cu ilin Qarabağ münaqişəsinin həllində dönüş ili olması Ermənistanın mövqeyindən asılı olacaq:** “Dövlət başçımız çıxışında bildirdi ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Onlarda hakimiyyət dəyişikliyi baş verib, yeni, təcrübəsiz hökumət formalaşır, Dağlıq Qarabağ klanı hakimiyyətdən tamamilə uzaqlaşdırılıb. Əvvəlki hökumət faktiki olaraq, 25 il ərzində əllərindən gələni edib ki, bu məsələ həll olunmasın. İndi Ermənistanda hakimiyyətə gələn yeni hökumətdən çox şey asılıdır. Çünki onlar düşdükləri çətin, mürəkkəb vəziyyətdən çıxmaq istəyirlərsə, işğal siyasətinə son qoymalıdır. Onlar keçmiş hökuməti tənqid edirlər. Ermənistanın belə bir vəziyyətə düşməsinin səbəbkarları məhz kriminal Qarabağ klanıdır. Ona görə də yeni gələn hakimiyyət əlindən gələni etməlidir ki, bu vəziyyətdən çıxsın. Çıxış yolu isə odur ki, Azərbaycan torpaqlarının azad olunma prosesi başlansın. Əsas şərt budur. Belə bir yanaşma müşahidə etsək, əlbəttə ki, əlimizdən gələni etməliyik ki, bu məsələ həll olunsun”.

**Onun fikrincə, 2019-cu ildə müəyyən bir irəliləyişin baş verməsi istisna deyil.** “Azərbaycan həm diplomatik səylərini, həm siyasi addımlarını bu məqsədlərə yönəldəcək. Ölkə başçısı İlham Əliyev elə Lavrovla görüşündə bu barədə çox ətraflı danışdı. Prezident vurğuladı ki, burada Azərbaycan-Rusiya strateji tərəfdaşlıq formatı öz sözünü deməlidir. Rusiya Minsk Qrupunun həmsədri kimi bu məsələdə Ermənistana müəyyən təzyiq göstərməlidir. Çünki Rusiyadan çox şey asılıdır”, - deyə o, əlavə edib.



## Daha bir erməni əsgər güllələndi

**Ermənistan Müdafiə Nazirliyinin hərbi hissələrindən birində əsgər güllələnib. Bununla bağlı shamshyan.com saytı məlumat yayıb. Məlumata görə, 19 yaşlı Andranik Ovanisyan “naməlum şəraitdə” başından güllə yarası alıb. O, dərhal xəstəxanaya çatdırılıb. Faktla bağlı araşdırma aparılır.**

Xatırladaq ki, az öncə işğal altındakı Dağlıq Qarabağda iki erməni əsgəri minaya düşmüşdü. Erməni ordusunda güllələnmə halları isə tez-tez baş verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018

# Güllәkeçirmәz şüşәnin 1 kvadratını Bakıda 550 manata satırlar

## Quraşdırılma xәrclәri dә astronomikdir - 1 kvadratı 250 manata

**Daxili İşlər Nazirliyi (DİN) İstintaq İdarəsinin Ağır Cinayətlərin İstintaqı İdarəsində sabiq deputat Hacı Qalib Salahzadənin adı keçən üzləşdirmə zamanı maraqlı məlumat üzə çıxıb. Sabiq deputat onunla üzləşdirilən zərərçəkən Ələkbər Quliyevə deyib ki, Bilgəhdəki 7 mərtəbəli imarətinin şüşələri gülləkeçirməyəndir. Həmin şüşələri İtaliyada sifariş edib. Ə.Quliyevin qardaşı, iş üzrə digər zərərçəkən Seymur Quliyev bu haqda “Yeni Müsavat”a açıqlamasında Hacı Qalib həmin gülləkeçirməyən şüşələrə görə 4 milyon avro xərclədiyini bildirib. Bəs Azərbaycanda güllə keçirməyən şüşə istehsal olunurmu və həmin şüşənin kvadrat metrinin qiyməti neçəyədir?**




Bu və digər suallara aydınlıq gətirmək üçün məlumat toplayarkən məlum oldu ki, ölkəmizdə belə şüşə istehsalı ilə məşğul olan şirkət var.

Həmin şirkətin nümayəndəsi “Yeni Müsavat”ın əməkdaşı ilə söhbətində deyib ki, qiymət 1 kvadrat metr üçün 350 manatdan başlayır və 550 manata qədər arta bilər. Bu qiymətə şüşənin quraşdırılması daxil deyil.

Quraşdırılma xidmətinə və əlavə materiallara görə hər kvadrat üçün 150-250 manat alına bilər. İrandan alınan şüşələr Türkiyə istehsalı olan plyonka ilə işlənməklə gülləkeçirməz hala gətirilir. Daha ucuz plyonka Çindən gətirilir və qiyməti bir qədər aşağı olur.

Bəs keyfiyyət, uyğunluq sertifikatları varmı?

Şirkət nümayəndəsi deyir ki, gülləkeçirməz şüşələr əsasən 3-5 atəşə davamlılığa hesablanıb. Bundan sonrası isə Allahın ümidinədir. Yeni atəşə tutulan şəxs qaçıb canını qurtarana qədər şüşə sınıb sıradan çıxmır. Şirkət şüşələrə uyğunluq sertifikatı verir. Şüşələrin istifadə müddəti atəş açılana qədərdir. Şüşə bu halda da sınmır, sadəcə, çiliklənir, içindəki plyonkanın hesabına dağılıb yerə tökülmür.

Şirkət nümayəndəsi İtaliyadan Azərbaycana gülləkeçirməz şüşə gətirilməsi ilə bağlı məlumatsız olduğunu deyib. Bildirib ki, İtaliyada da keyfiyyətli gülləkeçirməz şüşələr istehsalı var.

Şirkət nümayəndəsi deyib ki, Azərbaycanda hazırlanan gülləkeçirməz şüşələrin sınağı “Armor Test” Sertifikatlaşdırma və Tədqiqatlar Mərkəzində həyata keçirilib və uyğunluq sertifikatı təqdim olunub. Zirehli şüşələr güllədən müdafiə qabiliyyətinə görə siniflərə bölünür.

Ən yüksək sinif üçüncü müdafiə sinfi sayılır.

Bu sinfə aid olan şüşələr AKM (Kalaşnikov avtomatı) tipli avtomatdan açılan (57-H-231 güllə , kalibr 7,62 mm) gülləyə davam gətirir.

9 mm kalibrli 57-H-181C patronlarla PM(Makarov pistoleti) tapançasından atəş açan zaman gülləyə davamlılıq üzrə qorunmanın birinci dərəcəsi (polad özəkli PST gülləsi)

7,62 mm kalibrli 57-H-134C patronlarla TT tapançasından atəş açan zaman gülləyə davamlılıq üzrə qorunmanın ikinci dərəcəsi (polad özəkli PST gülləsi)

7,62 mm kalibrli 57-H-231 patronlarla (istiliklə möhkəmləndirilmiş polad özəkli PC gülləsi) AKM avtomatından atəş açan zaman və 5,45 mm kalibrli 7H6 patronlu (istiliklə möhkəmləndirilmiş polad özəkli PC gülləsi)

AK-74 avtomatından atəş açan zaman gülləyə davamlılıq üzrə qorunmanın üçüncü dərəcəsi.

Bəs hansı məsafədən açılan atəş zirehli şüşəni dəlib keçmir?

Şirkət nümayəndəsi deyir ki, kvadratı 550 manata satılan şüşə 200 metr məsafədən “Kalaşnikov” avtomatından açılan 3-4 atəşə davam gətirə bilir.

Bəs bir daraq güllə atılsa necə, şüşə davam gətirəcəkmi?

Şirkət nümayəndəsi “bunu yoxlayan olmayıb” cavabını verib. Bildirib ki, gülləyədavamlı şüşələr maksimum 5 atəşə hesablanıb. Texniki möhkəmləndirilmiş şüşələrə verilmiş sertifikatlarda 1 və ya 10 gülləyə davamlı olması göstərilmir. Sadəcə, gülləyədavamlı texniki möhkəmləndirilmiş şüşə olması qeyd olunur. Şirkət nümayəndəsi Azərbaycanda istehsal olunan şüşənin Rusiyada test edildiyini də vurğulayıb.

Hacı Qalib üzləşmə zamanı zərərçəkənə dedikləri doğrudursa, onun Bilgəhdəki 7 mərtəbəli imarətinin 3 mərtəbəsi belə gülləyədavamlı şüşələrdəndirsə, qiymət məsələsi də deməli uyğundur - 4 milyon avro. Bəs Hacı Qalib yerli istehsal olan gülləyədavamlı şüşələr sifariş etsəydi, nə qədər vəsaitə qənaət edə bilərdi? Bu sual hazırda açıqdır. Çünki Qalib Salahzadənin 7 mərtəbəli imarətinin eni və uzunu haqda əlimizdə dəqiq məlumatlar yoxdur...



**❑ E.HÜSEYNOV, “Yeni Müsavat”**

# Hafiz Hacıyev bəzi məmurların sürətlə varlanmasının sirrini açdı

## “Aqibətləri Akif Çovdarov kimi olacaq...”

**Azərbaycanda bəzi məmurlar sürətlə varlana bilirlər. İndiyədək işdən azad olunan demək olar ki, bütün orta və yüksək ranqlı məmurların böyük həcmdə var-dövlətinin olduğu aşkarlanıb. Bu var-dövlətə yalnız ölkə daxilində deyil, xarici ölkələrdəki bank hesabları, şirkətlər və əmlaklar da daxildir.**

Bəzi məmurlar var ki, vəzifədə olduqları müddətdə var-dövlətlərini sərgiləməkdən çəkinmir, dəbdəbəli məclislər təşkil edir, özlərinə bahalı maşınlardan, rəsm əsərlərindən, nadir heyvan növlərindən kolleksiyalar yaradırlar. Xatırladaq ki, ölkə qanunvericiliyi məmurların biznes fəaliyyətini qadağan edir.

Cəmiyyətdə böyük əksəriyyət hesab edir ki, Azərbaycanda məmurların varlanması rüşvətxorluqla bağlıdır. Amma maraqlıdır ki, rüşvətxorluq çoxsaylı dövlətlərdə özünü büruzə verən haldır. Və bu dövlətlərin demək olar ki, heç birində məmurların sürətlə və bizdəki qədər varlanması, sərvət əldə etməsi mümkün olmur. Azərbaycanda məmurları varlandıran səbəb nədir?

**Suala cavab verən Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev bildirir ki, bəzi insanlar vəzifəyə varlanmaq, sərvət toplamaq vasitəsi kimi baxırlar:** “Bu gün heç bir dövlət deyə bilməz ki, rüşvətin kökünü tamamilə kəsib. Bu, mümkün olan məsələ deyil. Azərbaycanda da rüşvətxorluq var. Lakin yalnız rüşvət hesabına məmurların belə varlanması, sözün həqiqi mənasında harınlaması mümkün deyil. Baxın, Ziya Məmmədovdur, Fazil Məmmədovdur, Rüfət Aslanlıdır - bunların hamısının milyonlarla dollarlıq əmlakı, sərvəti var. Bilirsiniz, bizimkilərin hamısı görməmişdilər. Vəzifəyə gələn kimi tez var-dövlət toplamağa çalışırlar. Bir də görürsən cavan kadrdır, dövlət başçısı etibar edib mühüm bir sahənin başına təyin edib. Bah, bu gələn kimi arvadı deyir, mən on minlik paltar


Hafiz Hacıyev

geyinməliyəm, qohumları deyir, bizim hərəmizə bir şirkət açmalısan. Bunlar başa düşmürlər ki, bu adam, tutalım, nazirdir, ayda 2 min manat əmək haqqı ilə bunları edə bilməz. Belə olanda da bu adam oğurluğa, dövlətin malını talan etməyə başlayır”.

**H.Hacıyev böyük miqdarda var-dövlət toplamış məmurlardan biri kimi, Dövlət Dəmir Yollarının keçmi sədri Arif Əsgərovu misal çəkir: “Bunun oğlu burada çapıb-taladığı milyonları aparıb Türkiyədə bir arvada verib saxlatdırır. Bunların əxlaqı, mənəviyyatı budur. Baxın, Rüfət Aslanlını vəzifədən çıxarandan sonra nə qədər var-dövləti, maşınları, Fransada şərab zavodu, saatları aşkarlandı. Bu gün xaricdən Azərbaycan dövlətinə, onun başçısına qarşı kampaniyanın arxasında keşmiş məmurlar dayanırlar. Londondakıları keçmiş kənd təsərrüfatı naziri İsmət Abbasov maliyyələşdirir. Vidadi İsgəndərli və digərlərini Fransada Ziya Məmmədov, Fazil Məmmədov və onların övladları maliyyələşdirirlər. Biri çıxıb deyir, məndə kaset var. Bu kaset məsələsini kim ortaya atdı - sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov. Bu adam niyə içəridə oturmur axı?”**

**Partiya sədrinin fikrincə, bir sıra məmurları dövlət rəhbərliyinin tapşırıqlarını icra etmək yox, nəsil-kökünü varlandırmaq düşündürür:** “Bunlar vəzifəyə gələn kimi olurlar kral, ataman. Ay balam, sən aldığın əmək haqqı ilə xaricdə şirkətlər qura, villalar ala, media yarada bilən deyilsən axı Ziya Məmmədov 50 milyon yatırıb Türkiyədə medai kanalı yaradır - haradan alıb o qədər pulu? Hansını dilləndirirsən, deyirlər, mənə ayrılan pulun üzünü görmürəm. Bəs kim görür üzünü? Belə məmurlar dövlətə radikal müxalifətdən daha böyük zərbə vururlar. Elə bilirsiniz, Zamirə Hacıyevanın Londonda xərclədiklərini burada xərcləyənlər yoxdur? Var, onlarla belə məmur arvadları var ki, bir qızıl mağazasında 20-30 min manat birdən qoyub çıxırlar. Hansı xarici ölkəyə gedirsən, məmur arvadlarını bahalı mağazalardan çıxan görürsən. Bir şalvara 5 min manat verirlər. Bəyəm bunu ərlərinin 1-2 min manat maaşı ilə edirlər? Şəhid ailələrini küçələrə salıblar. Bunların hamısına pul verməK imkanı yox idisə, niyə təklif hazırlayıb cənab prezidentə təqdim edirdiniz? Niyə camaatı dövlətə qarşı qaldırırsınız?”

H.Hacıyev hesab edir ki, bütün köhnə məmur komandası vəzifədən alınmalıdır: “Onların hamısı satqın, dövlətin düşmənləridir. Bakının ətrafındakı bütün kəndlərdə onların hamısının villaları var. Mən yeddinci mikrorayonda moyka açmışam, gecələr orada gündə 20 maşın yuyuram, niyə milyarder ola bilmirəm? Cənab prezident nə qədər tapşırır ki, xalqa layiqincə xidmət edin, bunlar hamısını qulaqardına vururlar. İcra başçıları özlərini padşah kimi aparırlar. Bu gün Ağdaşın mərkəzi bazarında antisanitariya baş-alıb gedir, hər tərəf üfunət qoxuyur. İcra başçısının heç vecinə də deyil, onun üçün əsas odur ki, bazardakı satıcılardan pulunu yığsın. Həyatımın 30 ilini bu dövlətə həsr etmiş bir insan kimi mən susa bilmirəm. Bunlara deyirəm ki, hamınızın aqibəti Akif Çovdarov kimi olacaq”.

**❑ DÜNYA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 272 (7161) 19 dekabr 2018



# ABŞ embarqoları İran aviasiyasının "qanadını" qırdı

## Tehranın bölgənin ən böyük mülki aviasiya mərkəzinə çevrilməsinə yönəlik 40 milyardlıq layihəsi iflas oldu

**ABŞ hökumətinin İrana qarşı ikinci sanksiya dalğasının başladığı noyabrdan sonra ən ciddi zərbə onun mülki aviasiyasına dəyib. Hələ noyabrın 1-dən etibarən bir çox ölkələr, o cümlədən Türkiyə şirkətləri İran mülki aviasiya təyyarələrinə yanacaq satmaqdan imtina edib.**

Bundan başqa, noyabrda elan olunan ikinci sanksiya paketində İran Hava Yolları Şirkəti və təyyarələri var. Bu isə o deməkdir ki, İran artıq Qərbdən, konkret olaraq ABŞ və Fransadan təyyarələr ala bilməyəcək. Məsələ ondadır ki, hələ bu ilin mayında Tramp İranla "altılıq" ölkələri arasında 2015-ci ildə imzalanmış nüvə sazişindən çıxdıqdan sonra Qərbin nüfuzlu şirkətləri, o cümlədən "Boeng" və "Airbus" kimi iri şirkətlər İranla müqavilələri dayandırdı.

Məsələ ondadır ki, mülki aviasiya və konkret olaraq təyyarə parkı mövzusu İran hökumətinin yaralı yeridir. 1979-cu il İslam İnqilabından sonra ABŞ-la əlaqələri dayanıb. Xüsusən də 1979-cu il noyabrın 4-də ABŞ-ın Tehrandakı səfirliyi tələbələr tərəfindən ələ keçirilib, səfirlik əməkdaşları girov götürüldükdən sonra münasibətlər pisləşib və Vaşinqton İrana qarşı sanksiyalar tətbiq edib. Bundan sonra İran embarqolar səbəbindən ABŞ-dan təyyarə ala bilməyib və nəticədə təyyarə parkı yenilənməyib. Nəticədə İran mülki aviasiyası 200-dən çox qəza yaşayıb və 2 min nəfərdən çox insan ölüb.

Ancaq 2015-ci il İran - "altılıq" anlaşmasından sonra, daha dəqiqi, hələ anlaşmadan iki il əvvəl ilkin razılaşma dövründə Vaşinqton İrana qarşı bəzi sanksiyaları, o cümlədən təyyarə satışı yasağını qaldırıb. Bundan sonra İran hökuməti ABŞ-dan sərnişin təyyarələri almağa başlayıb. İlk olaraq təyyarə ehtiyat hissələrinin alınması başlayıb. 2016-cı ildə təyyarə embarqosu tamamilə ləğv olunduqdan sonra Tehran "Boeng" və "Airbus" firmaları ilə ümumilikdə 40 milyard dollarlıq təyyarə alınması müqaviləsi imzalayıb.

Ancaq bu anlaşma iki il keçməmiş ləğv olunub. Lakin buna baxmayaraq İran bu dövrdə bir neçə təyyarə alıb. Belə ki, embarqonun ləğv olunduğu 1,5 il ərzində "Airbus" şirkəti İrana 3 sərnişin təyyarəsi və 8 turboprop mühərriki təhvil verib. 2017-ci ilin yanvarında Fransanın Tuluza şəhərində keçirilən mərasimdə 189 yerlik A321 model "Airbus" təyyarəsi "İran Air" şirkətinin prezidenti Fərhad Pərvərişə təhvil verilib. Təyyarənin üzərinə şirkətin emblemi vurulub.

2016-cı ilin dekabrında İran və "Airbus" şirkəti arasında əldə olunmuş anlaşmaya əsasən ümumilikdə "Airbus" şirkəti İrana 100-dək təyyarə və 12 ədəd motor satmalı idi. Müqavilənin dəyəri 19 milyard dollar idi.

Bundan bir il sonra - 2017-ci ildə isə İran hökuməti və "Boenq" arasında əldə olunmuş 17 milyard dollar dəyərində müqaviləyə əsasən şirkət 2017-2025-ci illər ərzində İran Hava Yolları Şirkətinə 100 təyyarə satacaqdı. "Boenq" şirkəti ilə İranın "Aseman" şirkəti arasındakı bir başqa anlaşmaya görə, 3 milyard dollar qarşılığında 30 sərnişin təyyarəsi verəcəkdi.

Ümumilikdə İran hökuməti embarqoların qalxmasından sonra ABŞ, Fransa və İtaliya şirkətləri ilə ümumi dəyəri 39 milyard dollar olan bir neçə müqavilə imzalayıb. Bu müqavilələrə əsasən, Tehran 200-ə qədər mülki təyyarə alacaqdı. "Boenq" şirkəti ilə "İranAir" arasında imzalanmış anlaşmaya əsasən satın alınacaq 80 təyyarədən 50-si "Boenq 737 MAX-8", yerdə qalan 30 ədədi isə "Boenq 777" model sərnişin təyyarələri olacaqdı. Eləcə də bu təyyarələrdən 15-i "Boeing 777-300", 15 ədədi isə yeni nəsil "Boenq 777-9" model təyyarə olacaqdı.

"Airbus" şirkəti ilə İran Hava Yolları arasında əldə olunan anlaşmaya əsasən "Airbus A321 və "Airbus A3302 markalı təyyarələr alınacaqdı. Qeyd etdiyimiz kimi, "Airbus"dan artıq bir neçə təyyarə alınıb. Ancaq Trampın nüvə anlaşmasından çıxması və İrana qarşı yeni embarqo paketi elan etməsindən sonra bir sıra şirkətlər, o cümlədən ABŞ-ın "Boenq" və Fransanın "Airbus", eləcə də İtaliya ilə müştərək ATR şirkətləri İrana təyyarə satışını dayandırdıqlarını bəyan edib. Ən son olaraq bu ilin avqustunda İranın ATR şirkətinə sifariş etdiyi 5 ədəd ATR72-600 markalı təyyarə təhvil verilib. Ümumilikdə isə İran ATR şirkətinə ümumi dəyəri 536 milyon dollar olmaqla 20 ədəd ATR 72-600 markalı sərnişin təyyarəsi sifariş edib və bunun artıq 13-nü təhvil alıb.

Embarqoların ləğvindən sonra isə İran Hava Yolları 200 ədəd, digər özəl şirkətlər isə ümumilikdə 100 ədəd olmaqla, cəmisi 300 ədəd təyyarə sifariş verib. Bu təyyarələr alınsaydı, İran bölgədə ən böyük hava yolu şirkəti olan Qətər Hava Yollarını da keçəcəkdi. Lakin qeyd etdiyimiz kimi, Trampın embarqoları yenidən bərpa etməsi İranın təyyarə yeni alması layihəsini də dayandırdı. Üstəlik, hazırda İran mülki təyyarələri xarici ölkə limanlarında benzin almaqda çətinlik çəkdiyi üçün bir sıra ölkələrə yükdaşıma xidmətlərini məhdudlaşdırıb - baxmayaraq ki, İran rəsmiləri hələ də embarqoların İran iqtisadiyyatına ciddi təsir etmədiyi fikrini müdafiə edirlər.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# "Bakının İrəvana ultimatum verməyinin vaxtı çatıb"

## Politoloqlar işğalçı ölkədə hakimiyyət dəyişikliyinin Qarabağ danışıqlarına mümkün təsirindən danışdılar

**Dekabrın 9-da Ermənistanda keçirilən parlament seçkilərindən sonra düşmən ölkədə formalaşan yeni hökumətlə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların necə aparılacağı ilə bağlı suallar yaranıb.**

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"da məsələyə bu cür şərh verdi:** "Ermənistanda hakimiyyətə Qarabağ klanının yerinə Nikol Paşinyan gəlib. Belə baxanda Paşinyanın Azərbaycan torpaqlarının işğalında əli yoxdur. Yeni məntiqlə bu şəxslə danışıqlar aparmaq olar və lazımdır. Ancaq əgər onun Qarabağla bağlı mövqeyi eks-prezidentlər Robert Köçəryanın və Serj Sərkisyanın mövqeyindən fərqlənməzsə, onunla güc dili ilə danışmaq məcburiyyətində qalacağıq. Hələ ki Paşinyan barışa ümid verən heç bir açıqlama vermir, addım atmır. Tam əksinə, işğalın davam edəcəyini bildirir. Əslində Ermənistanda hakimiyyətdə kimin olması bizim üçün o mənada maraq kəsb edir ki, həmin şəxs torpaqlarımızı boşaldacaq, ya yox? Son bir neçə aydır cəbhə bölgəsində nisbi sakitlikdir, atəşkəsin pozulması halları minimuma enib. Bu, rəsmi Bakının Nikol Paşinyana verdiyi bir şans idi ki, parlament seçkisini rahat keçirib, Qarabağ klanını həm hakimiyyətdən, həm də parlamentdən uzaqlaşdırsın. Paşinyan buna nail oldu. Paşinyan qısa müddətdə hökuməti formalaşdıracaq. Ona görə də növbəti ilin birinci rübündə Paşinyan Qarabağ münaqişəsinin həlli istiqamətində addım atmalıdır. Atmasa biz tədbirlərimizi görməliyik, cəbhə bölgəsində düşmənin problemlərini artırmalıyıq. Fikrimcə, rəsmi Bakının İrəvana ultimatum verməyinin vaxtı çatıb. Regional şərait də bizim üçün əlverişlidir. Ultimatumun mətni belə olmalıdır: yaxın 3 ayda Dağlıq Qarabağ ətrafında torpaqların boşaldılması istiqamətində addım atmasan,




ağır nəticələrlə üzləşməli olacaqsan. 1990-cı illərin əvvəllərində İraq Küveyti işğal edəndə Vaşinqton Səddam Hüseynə Küveyti boşaltmaq üçün vaxt verdi. Vaxt bitdikdə ABŞ "səhrada fırtına" əməliyyatına başladı. Bu təcrübədən faydalanmaq lazımdır".

**Politoloq Əhəd Məmmədli hesab edir ki, Ermənistanın yeni hökuməti ilə Dağlıq Qarabağ danışıqları sərt şəkildə aparılmalıdır:** "Paşinyanın sərsəmlələrinə danışıqlar zamanı Azərbaycan tərəfi sərt reaksiyalar verməlidir. Ermənistan hiss etməlidir ki Azərbaycanın səbri tükənmək üzrədir. Rəsmi Bakı İrəvanla da, Moskva ilə də konkret danışmalıdır. Azərbaycan Rusiyanı seçim arasında qoymalıdır: ya ərazi bütövlüyümüzün təmin edilməsinə mane törətməyəcəksiniz, ya da Azərbaycan Ukrayna, Gürcüstan kimi Qərbə inteqrasiya etməyə məcbur olacaq. Moskva Azərbaycanı tam itirə biləcəyini anlamasa, rahatca Ermənistanın arxasında durmağa davam edəcək. Lukaşenkonun "Serjə dedim ki, 5 rayonu qaytar, sonra da biz Rusiya ilə ordumuzu yeridək" tipli təklifləri yenə səslənəcəyi təqdirdə Azərbaycan bunları qətiyyən rədd etməlidir. Heç bir vəchlə "5+2, sonra da rus qoşunları münaqişə zonasına yeridilir və Dağlıq Qarabağ xalqı özü öz müqəddəratını həll edir" planına bəli deməməliyik. Rus əsgəri Azərbaycan ərazisinə girsə, bir daha oradan çıxan deyil. 180 ildən sonra rus ordusunu torpaqlarımızdan çıxartdıq. 25 ildən sonra bir də öz əllərimizlə rusları dəvət etmək Qarabağı itirmək deməkdir. Güman edirəm ki, buna Azərbaycanda heç kəs getməz. Ermənistanda yeni hökumətin gəlişi müvəqqəti də olsa danışıqları canlandıra bilər. Amma canlandırma Azərbaycanın torpaqlarının de-yure də itirilməsinə gətirib çıxaracaqsa, bizə belə canlanma lazım deyil. Lukaşenkonun Paşinyanın üstünə belə düşməsi, Nikolun prezidentlərlə deyil, qorumalarla eyni sırada oturdulması Putinin ondan narazı olduğunu göstərir. Amma bu narazılığın töhfəsini biz hələ Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində görmürük. Əksinə, Ermənistanın işğal etdiyi torpaqlar məsələsində Azərbaycana qarşı sərt mövqeyi davam edir. Paşinyanın çoxlu sayda Dağlıq Qarabağa səfərləri, oğlunu Azərbaycan torpaqlarına hərbi qulluğa göndərməsi rəsmi Bakını qıcıqlandırmaqdan başqa heç nə deyil. Yeni erməni iqtidarı kreslosunu möhkəmləndirməyinə möhkəmləndirir, lakin bunun Bakıya istisi ya soyuğu yoxdur. Yəni hələlik möhkəmlənməmiş Paşinyan özünü belə aparırsa, görün möhkəmlənəndə özünü necə aparacaq? Ona görə Ermənistanın yeni inqilab hökuməti kreslosunu tam möhkəmləndirməmiş Azərbaycan ərazi bütövlüyünə qovuşmalıdır. Lukaşenkonun dediyi kimi, əgər ermənilər Dağlıq Qarabağ ətrafındakı 5 rayonu azad etməyə belə hazır deyillərsə, deməli, danışıqların Azərbaycan üçün yenə heç bir əhəmiyyəti olmayacaq. Əhəmiyyətsiz danışıqlar isə hər il bizi Qarabağımızdan daha da uzaqlaşdırır. Danışıqlarda Ermənistandan hansısa güzəştlər görmək istəyiriksə, düşmənə sözdə yox, nəhayət, əməldə hərbi gücümüzü göstərməliyik. Əks halda, "demokratik" Ermənistan Azərbaycanı barbar adlandıraraq Dağlıq Qarabağ məsələsində təkcə Rusiyanı deyil, Qərbi də yanına alacaq".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

**Böyük Britaniyada korrupsiyaya qarşı mübarizə qanununun ilk hədəfi Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva ev dustaqlığında günlərini saydığı bir vaxtda krallıq rəsmiləri daha bir qərar veriblər. Həmin qərarla krallıq ərazisində imkanlı əcnəbilərə vətəndaş olmadan yaşamağa imkan verən populyar "Tier 1" investisiya vizası proqramı dayandırılıb. offshoreview.eu portalı bu qərarın korrupsionerlərin Londona yolunu bağladığını bildirir. Bu qərar 10 il əvvəl verilsəydi, bu gün Zamirə Hacıyeva istintaq altında olmazdı və gəlirlərinin mənbəyi haqda sorğulanmayacaqdı.**

# Zamirə Hacıyevanın "ilişməsi" Londona pul qaçıran korrupsionerlərin yuxusunu ərşə çəkib

## Böyük Britaniya "qara pul" sahiblərinin "ovuna" başlayır



Belə ki, indiyə qədər Böyük Britaniya iqtisadiyyatına müvafiq olaraq 2, 5 və 10 milyon funt-sterlinq yatıran xarici ölkə vətəndaşları işləmək hüququ olmadan bu ölkə ərazisində 2, 5 və ya 10 il yaşamaq hüququ əldə edirdi.

Bu statusu alan investor ilin ən azı 180 gününü Böyük Britaniyada olmalı idi. Müəyyən müddət sonra isə onlar vətəndaşlıq almaq üçün müraciət edə bilərdi. Zamirə Hacıyeva Britaniyada istintaqa cəlb olunandan sonra isə vəziyyət dəyişib. Öz ölkələrində milyardları qamarlayıb Britaniyaya qaçmaq həvəsinə düşmüş bəzi məmurlar planlarını dəyişməlidirlər. Pullarını artıq Britaniyaya yatırmış, transfer etmiş bəzi məmurlar isə ciddi təlaşlana bilərlər. Çünki Britaniya hüquq-mühafizə orqanlarının kompromissiz mövqeyi gec-tez onları da Zamirə Hacıyevanın durumuna gətirəcək. London məhkəməsi qarşısında dayanıb pulların mənbəyi ilə bağlı zəhlətökən, detallı sorğu-sualın obyekti olacaqlar.

Maliyyə şəffaflığı siyasətinə keçən Böyük Britaniya 2017-ci ildə kriminal aktivlər barədə qanun qəbul edib. Həmin qanun ilk dəfə Zamirə Hacıyevaya qarşı tətbiq olundu.

Xəbər verildiyi kimi, Milli Kriminal Agentliyinin ekspertləri "Tier 1" vizası ilə Böyük Britaniya ərazisində yaşayan Zamirə Hacıyevanın aktivlərinə həbs qoyub. Əgər Hacıyeva gələn ilin iyununda bu aktivlərin qanuni yollarla əldə edilmiş gəlirlər hesabına alındığını sübut edə bilməsə onlar müsadirə olunacaq.

Daha sonra Zamirə Hacıyevanın özü də Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verilə bilər. offshoreview.eu bildirir ki, əgər əvvəllər hakimiyyət investorları aktivlərinin mənşəyinə xüsusi əhəmiyyət vermirdisə, indi onlar mütləq qaydada audit olunacaqlar.

Bundan əlavə, 2015-ci ilə qədər verilmiş 700 "Tier 1" vizasına yenidən baxılacaq. Amma bütün bunlar o demək deyil ki, krallıq öz qapılarını xarici investorlar üçün bağlayır. "Intelligent Solution Group" konsaltinq şirkətinin ekspertləri deyirlər ki, əksinə, bu qaydalar təmiz yolla pul qazanan investorların öz pullarını Böyük Britaniya iqtisadiyyatına yatırmasına və vətəndaşlıq almasına kömək edəcək. Zərbə ancaq korrupsiya yolu ilə varlananlara dəyəcək.

2019-cu ilin qızmar yayında London məhkəməsinin Z.Hacıyeva ilə bağlı verəcəyi qərar dolayısı ilə Cahangir Hacıyevə ittihamların nə dərəcədə reallıqla uzlaşdığını da ortaya qoymuş olacaq.

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**



# "Sarı jiletlilər" Macarıstana gəlir-bu ölkədəki diaspora sədrimiz danışır

## Ramiz Əmirli: "Budapeştdə durum heç də ürəkaçan deyil"

**Son günlərdə Macarıstanı etiraz aksiyaları bürüyüb. Aksiyalara səbəb dekabrın 17-də Macarıstanın baş naziri Viktor Orban və onun Nazirlər Kabineti tərəfindən əmək qanununa edilən dəyişikliklərin parlamentdə təsdiq edilməsidir.**

Qanunun qəbulu günü sayları 10 min nəfərə çatan aksiya iştirakçıları parlament binası qarşısında bir araya gələrək, hökumət əleyhinə şüarlar səsləndiriblər. Macar polisi aksiyanı dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib. Macarıstan hökuməti bu etiraz aksiyasının Fransa, Hollandiya və Belçikada olduğu kimi "sarı jiletlilər"in etiraz aksiyasına çevrilə biləcəyindən narahatdır.

Ekspertlər də bir ay öncə Fransada başlayıb digər Avropa ölkələrinə yayılan "sarı jiletlilər" hərəkatının bu ölkəni də ağuşuna ala biləcəyi ehtimallarından söz açırlar.

**Macarıstandakı son durumla bağlı bu ölkədəki Azərbaycan diasporunun sədri Ramiz Əmirli ilə əlaqə saxladıq. Ramiz bəy "Yeni Müsavat"a bunları dedi:** "Bir həftə öncə Macarıstan parlamentində iş yerlərində işçilərin, ələlxüsüs da iri Holdinqdə çalışanların iş vaxtından əlavə 250 saat əvəzinə 400 saat işləməyinin mümkünlüyünü qəbul etmək üçün məsələ müzakirəyə çıxarıldı. Amma bunun müzakirəsinin başlanmasına belə imkan verilmədi. İnsanlar bu qərara öz etirazlarını bildirməyə başladılar. Bundan istifadə edən müxalifət partiyaları və həmkarlar ittifaqları birgə nümayiş təşkil etdilər. Nümayişlər getdikcə daha da geniş vüsət almağa başladı və bu günə kimi də davam edir. Artıq hiss olunur ki, Budapeştdə durum heç də ürəkaçan deyil. Bunun hara doğru getdiyini və necə qurtaracağını heç kim dəqiqliklə deyə də bilməz. Müxalifət qüvvələrinin təşkil etdiyi etiraz nümayişlərində bir neçə dəfə zorakılıq halları da baş verdi. Nümayişin dinc keçirilməsini və baş verə biləcək təhlükələri önləmək istəyən polis işçiləri aktiv etirazçılar tərəfindən daş-qalaq edildilər. Polis işçilərindən 14 nəfər yaralanan oldu. Üçüncü və dördüncü günlərdə baş verən ixtişaşların nəticəsi olaraq 51 etirazçı saxlanılıb və 13 nəfər müvəqqəti həbs edilib. Aktiv nümayişçilər 8 polis maşınını yararsız hala salıblar. Hökumət bütün bunların qarşısını almaq üçün artıq bəzi üsullara əl atmağa məcbur olub. Gözyaşardıcı qazlardan belə istifadə olunur. Bu baş verənlərin Fransa, Hollandiya, Belçika və Avstriya kimi ölkələrdəki " sarı jiletlilər"ə çevrilməsinin mümkünlüyü barədə məsələyə gəlincə, məncə, bunu böyük ehtimal saymaq da olar. Belə olan halda inanmıram ki, bütün bunlar macar hökumətinə ciddi bir təhlükə yaradacaq. Buna tutarlı bir səbəb də görə bilmirəm. Orban Viktor hakimiyyəti macar xalqının çoxluğu tərəfindən qurulubdur. Ona görə də bu baş verənləri, sadəcə olaraq, hər hansı bir demokratik ölkədə baş verə biləcək bir etiraz kimi qəbul edirəm. Aksiyalara səbəb yuxarıda göstərdiyim faktlardır".

**R.Əmirli aksiyaların getdikcə böyüdüyünü də qeyd etdi:** "Dekabrın 17-də hakimiyyətə yaxınlığı ilə tanınan MTV televiziyasının baş ofisinə basqın oldu. Müxalifətdə olan JOBBİK Partiyasının Milli Məclisdə olan üzvləri Szel Bernadett, Hadhazy Akosun rəhbərliyi altında etirazçılar televiziyanın baş ofisinə daxil ola biliblər. Müxalif qüvvələr, eləcə də Həmkarlar İttifaqı Macarıstan prezidenti Ader Janoşun etirazlara səbəb olan bu qərara qol çəkəcəyi halda ölkəni "sarı gödəkçələr"ə bürüyəcəklərini bildiriblər. Ona görə də qarşıdakı günlərdə ölkədə nələrin və nə kimi gözləntilərin baş verəcəyinə heç kim öncədən bir diaqnoz qoya bilməz. Yaşayarıq və görərik".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Əmisi sabiq rəisdən pulunu ala bilmir - qalmaqal

## Rasim Musayevin əmisi deyir ki, barəsində araşdırma aparılsa da, onu həbs etməyiblər

**Bakı Şəhər Prokurorluğundan Korupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilən materiallar əsasında sabiq polis rəisi Rasim Musayevlə bağlı araşdırma aparılır.**

Bu haqda bir çox dövlət qurumlarına, redaksiyamıza ünvanladığı şikayətdə Rasim Musayevin əmisi Nadir Musayev məlumat verib. Deyir ki, qardaşı oğlu ondan 20 min dollar alıb və qaytarmır: "Rasim Musayev və yoldaşı Sevda Musayevanın mənə və digər şəxslərə qarşı etdikləri dələduzluq cinayətləri barədə hər yana yazmışam. Əvvəlki şikayətlərimdə Rasim Musayevin, onun yoldaşı Sevda Musayevanın və Azər adlı şəxsin yalnız mənə qarşı törətdiyi cinayət əməlindən - 15 min və 20 min ABŞ dolları pulumu mənimsəməsindən bəhs etmişəm. Mənə vurulan 15 min manat ziyandan 13 600-ü qaytarılsa da, 20 min dollar pulum tam şəkildə qaytarılmır. Bildirməliyəm ki, bu şəxslərin cinayətkar əməllərinin audioyazısı da məndə var".

**Nadir Musayev qardaşı oğlu Rasim Musayev və onun yoldaşı Sevda Musayevanın qanunsuz hərəkətlərini müdafiə edən şəxslər haqda da məlumat verib:** "Rasim Musayevin mənə qarşı etdikləri barəsində Ramiz Zeynalovun qəbulunda oldum. Ona şikayət etdim. Ramiz Zeynalov Rasimə mənim pulumu qaytarmasa onu işdən çıxaracağını bildirdi. Sonradan da işdən çıxardı. Rasimin mənə pul atması hərəkətlərindən DİN-də də oldum. Orada Daxili Təhqiqatlar İdarəsinin rəisi, general Sahib Mirzəyevə şikayət etdim. Sonuncu Rasim Musayevi mənim iştirakımla dindirdi. Həmin vaxt Sahib Mirzəyev Rasim Musayevin nə oyunlardan çıxdığını, hətta Şəkidən vəzifədən də hansı hərəkətlərinə görə qovulmasından xəbərdar olduğunu bildirdi. General Rasim Musayevə dedi ki, 1-2 günə pulumu qaytarmasa, "and olsun general paqonlarıma Rasim Musayevi işdən azad etdirib tutduracaq".

**Sabiq polis rəisinin əmisi deyir ki, Rasim Musayev barəsində araşdırma aparılsa da, onu həbs etməyiblər:** "Rasim özü mənə deyib ki, çoxlu daşınmaz əmlakı var. O bildirib ki, belə daşınmaz əmlaklardan birini o, Qaradağ rayonunda Dövlət Yol Patrul Xidmətində növbədə olarkən əldə edib. Gecə Qaradağ rayonunda bina tikən bir şəxsin narkotik istifadəçisi və daşıyıcısı olan oğlunun avtomobilini saxlayıb. Maşında narkotik vasitələri aşkar edib. Həmin şəxsin atası tikdiyi binadan mənzil verib və oğlunun cinayət əməlini rəsmiləşdirməyib. Rasim Musayevin ən əhəmiyyətli qanun pozuntusu, ölkəmizə və dövlətçiliyimizə əhəmiyyətli mənfi təsiri isə onun Şəki Şəhər Dövlət Yol Polisinə rəis getməsi və 5 ay keçməmiş həmin vəzifədən azad olunmasıdır. Rasim Musayev Zeynəb Musa qızı Musayevadan, Nəsib Musa oğlu Musayevdən də pul alıb və qaytarmayıb. Zeynəb Musayeva da Binəqədi Rayon Prokurorluğuna şikayət yazıb. Bu adam atası Sadıq Musayevin belə "Mercedes" markalı avtomobilini satıb və pulunu isə mənimsəyib. Rasim Musayevin yalnız dövlət qulluğunda işləməklə əldə edə bilməyəcəyi digər qiymətli və daşınmaz əmlakları aşağıdakılardır:

- Novxanıda Badamlıq adlanan ərazidə bahalı bağ;
- Qaradağda dəniz kənarında bağ sahəsi;
- Bakı şəhərinin ən bahalı ərazisi olan Badamdarda 5 mərtəbəli evin 3-cü mərtəbəsini tam alıb;

Bildirməliyik ki, mənə qarşı törədilən cinayətdə iştirakçı olan Sevda Musayevanın mənzildə əziyyət çəkməməsi üçün Rasim Musayev 3 qulluqçu işlədir;

Sevda Musayevaya ən bahalı olan və benzin sərfiyyatı da çox olan yekə Cip alıb (007 dövlət nişanı ilə);

Özünə də eyni model, eyni bahalıqda və çox benzin sərfiyyatı olan Cip maşın alıb.

Qeyd olunanlardan başqa Rasimin bildirməsinə görə, Bakı şəhərinin başqa ərazilərində çoxlu daşınmaz əmlakları var".

Nadir Musayev məktubunda hüquq-mühafizə orqanlarının rəhbərlərinə müraciət edərək onu qəbul etmələrini də xahiş edib.

**Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.**

**❑ E.HÜSEYNOV,**

**Elan**

**Əliyev Yasin Şirin oğlunun adına olan Azərbaycan DƏDRX-nin Abşeron Ərazi İdarəsinin 24.12.2008; 1608016822 qeydiyyat nömrəli 308013018917 reyst nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.**

**Bu günlərdə xarici saytlardan birində belə bir xəbər yayılmışdı ki, əl-üzünü yuyan qadın suyun tərkibindəki mikroblara görə ciddi şəkildə xəstələnib. Mədə-bağırsaq iltihabına məruz qalan qadın uzun müddət xəstəxanada müalicə olunub. Bəli, təmizliyimizin, həyatımızın mənbəyi olan su eyni zamanda bizə problem, xəstəlik də bəxş edə bilər. “Yeni Müsavat” bu məqamda qarşılaşdığımız məqamlar, problemli detallarla bağlı gəzişmə edib.**



# Suyumuza bulaşan mikroblar - onlardan necə qorunaq...

## Dünya əhalisinin 20 faizi təhlükəli içməli sulardan istifadə edir

**Hansı su daha faydalıdır?**

Hər gün kifayət qədər içilən su bizi ürək-damar, böyrək, oynaqlar, allergik və s. xəstəliklərdən qoruyur. Lazımi miqdarda qəbul etdikdə su orqanizmimizi şlaklar, zəhərlər, toksinlərdən, mikroblar və s-dan. təmizləyir ki, nəticədə bu immun sistemimizi möhkəmləndirir. Mayelərin qəbulunun əsas hissəsi günün birinci yarısında olmalıdır. Digər orqanlar kimi, bizim sidik ifrazı sistemimiz də gecə ərzində “dincəlməlidir”. Bundan əlavə, əgər siz axşam vaxtı çoxlu maye içsəniz, səhər üzünüz şişkin və yorğun görünəcək.

Hansı su daha xeyirlidir? Plastik butulkalarda satılan su krandan gələn su ilə müqayisədə daha təmiz və ziyansızdır. Lakin belə su tanınmış istehsalçılar tərəfindən buraxılmış olmalıdır. Suyun iyinə və dadına da fikir verin. Su şəffaf olmalıdır. Əgər butulkanın dibində çöküntü varsa, belə suyu almayın.

Müalicəvi suları adi sular kimi qəbul etmək olmaz. Bu suları yalnız həkimlə məsləhətləşdikdən sonra istifadə etmək olar. Əks halda (xüsusən belə sular uzun müddət qəbul etdikdə), bu, sizin səhhətinizə mənfi təsir edə bilər.

Qazlı sular insanın həzm sistemi üçün xeyirli sayılmır. Belə sular gəyirmə və qıcqırmaya səbəb olur, mədə xəstəliklərinin kəskinləşməsi zamanı xəstənin vəziyyətini daha da ağırlaşdırır, qidalı maddələrin mənimsənilməsinə mane olur və s.

**Bizim su üç mərhələdə təmizlənir**

Ötən ilin dekabrında açıqlandı ki, Bakı şəhərinin əhalisini içməli su ilə təchiz edən Kür, Ceyranbatan, Oğuz-Qəbələ-Bakı, Şollar və Xaçmaz təchizatı kəmərlərindən götürülən 75 su nümunəsində bakterioloji göstəricilər üzrə 2,6 %, sanitariya - kimyəvi göstəriciləri üzrə 5,3 % normalara uyğun olmayan nümunələr təkrar götürülən müayinələrdən sonra normalara uyğun olub. Mərkəzi su anbarları və nasos stansiyalarından götürülən 1264 su nümunəsinin 1,6 %-i bakterioloji, 1, 1 %-i sanitariya-kimyəvi göstəricilərinə görə dövlət standartlarının tələblərinə cavab verməyib. Qeyri-kafi nəticələrlə əlaqədar “Azərsu” ASC-nin mütəxəssisləri yerində araşdırma aparılaraq dövlət standartlarına uyğun olmayan nəticələr üzrə operativ tədbirlər görülüb. Təkrar müayinələrin nəticələri normа səviyyəsində olub.

Azərbaycanda içməli su üç mərhələdə təmizlənir. Əvvəlcə su xlor vasitəsilə zərərsizləşdirilir. Sonra kimyəvi reagentlər vasitəsilə durulудur. Daha sonra duruldulan su qum filtrlərinə buraxılır.

Britaniyanı Kolumbiya Universitetindən alimlər bakteriyaları istifadə edərək, çirkli suları içilə biləcək suya çevirən bir sistem hazırlayıb. Bu sistem lif membran rezervuarları ilə çirkli hissəcikləri (çirk, orqanik hissələr, bakteriya və viruslar) tutur və suyu təmizləyir. Sonra faydalı bakteriyalardan ibarət olan bir biofilm ikinci qoruyucu mərhələ olaraq dövrəyə girərək, uyğun bir şəkildə işləyir və qalan çirkli maddələri parçalayır. UBC-də inşaat mühəndisliyindən layihə rəhbəri Pyer Berub bu barədə belə danışıb: **“Membran əməliyyatı sayəsində çirkli hissəciklərin 99,99%-ini təmizləyərək, suyu içiləbiləcək hala gətirə bilirik”.**

Bu araşdırma Kanada-Hindistan təşkilatı IC-IMPACTS tərəfindən rəsmi olaraq dəstəklənir. Membranla su təmizləmə yeni bir kəşf olmasa da, qrupun etdiyi dəyişiklər sistemi olduqca məhsuldar hala gətirir. “Sistemimiz cazibənin köməyi ilə, çirkli hissəcikləri ayıraraq yuxarı qaldırır, əks halda, toplanaraq membranı tuta bilər. Bu olduqca az güc tələb edən və məhsuldar bir sistemdir. Normal sistemlər davamlı olaraq kimyəvi maddələr və kompleks mexaniki sistemlər ilə membranları təmiz saxlamağa çalışır. Lakin yeni araşdırmada bakteriya biofilmi bu tutulan çirkli hissəcikləri yeyərək istehlak edir. Yalnız hər 24 saatda bir neçə klapan açılır, ya da bağlanır, beləcə, suyu qaldırır və cazibə qazandıraraq, sisteminin işləməsi təmin edilir. Yəni zaman və puldan əhəmiyyətli miqdarda qazanc təmin edərək sistemin ömrünü uzadırıq”, - deyə Berub bildirib. Lakin əsl hədəf, təmiz içmə suyunun çətin əldə edildiyi mərkəzlərdə bənzər sistemlər qurmaqdır. Bu sistem sayəsində daha az xərclə çirkli su təmizlənərək şəhərlərə verilə bilər.

**Su vasitəsilə yoluxan infeksiyalar ölüm səbəbidir - ikinci yerdə...**

Su vasitəsilə yoluxan infeksiyalar dünyadakı bütün ölüm səbəbləri arasında ikinci sırada yer alır. Təkcə ABŞ-dakı ishal xəstələrinin tibbi müayinəsinə sərf edilən illik məbləğ 6 milyard dollar olaraq, hesablanıb. Suların dezinfeksiyası və saflaşdırılması, insanların sağlamlıq və gigiyena mövzularında maarifləndirilməsi su ilə yoluxan infeksiyaların azalmasına gətirib çıxarır.

Dünya əhalisinin təxminən 20 faizi təhlükəli içməli sulardan istifadə edir. İldə 200 milyona yaxın insan su ilə bağlı xəstəliklərə yoluxur və 2 milyondan çox insan kirli sulardan qaynaqlanan xəstəliklər səbəbi ilə həyatını itirir.

İnkişaf etməkdə olan ölkələrdə tullantı sularının yalnız 5 faizi saflaşdırılır. Sənaye və ev tullantılarının ətraf mühitə zərər verməsi, axar sulara və yeraltı su qaynaqlarına nəzarətsiz olaraq, qarışması da ayrı bir problemdir. BBC-nin araşdırmasına görə, ABŞ-da 500 yetkin insan arasında aparılan sorğuda 69% suyun dərəcəsinin əlin təmizlənməsində rolu olduğuna inandığını deyib.

Düzdür, isti bakteriyaları məhv edir (buna görə də bəzi qidaları qaynadıb yeyirik), lakin, bunun üçün əlinizi qaynar su ilə yumalısınız. Məsələn, salmonella 55 dərəcə istidə 10 dəqiqə yaşaya bilir. Əgər əlinizi 30 saniyədən artıq 55 dərəcə isti suda saxlasanız yanar.

Əlimizdə 4.4 və 55 dərəcə selsi arası isti su ilə yuduqdan sonra nə qədər mikrob qaldığını müəyyənləşdirmək üçün floridalı tədqiqatçılar əlcək-şirə üsulundan istifadə ediblər. Könüllülər əllərini bakteriya dolu şorba və ya çiy çəkilmiş ətə bulaşdırıblar. Sonra isə əllərini müəyyən dərəcəli su ilə yuyublar və lateks əlcəklər geyiniblər. Həmin əlcəklərin içinə xüsusi maye tökülüb. Bir dəqiqə masaj etdikdən sonra həmin maye pipet vasitəsilə sovrularaq laboratoriyaya göndərilib. Aşkar olunub ki, suyun soyuq, ılıq və ya isti olması əldə qalan bakteriyaların sayında heç bir böyük fərq yaratmır.

Vestminster Universiteti tərəfindən aparılan bir tədqiqatda güclü əl fenlərinin virusu otaq boyunca 1.5 metr hərəkət etdirdiyi üzə çıxıb. Daha sonrakı bir tədqiqat isə virusun üç dəfə daha artıq məsafədə yayıldığını deyib. Bənzəri tədqiqatların əksəriyyəti adətən, dəsmal satışından pul qazanan dəsmal sənayesi tərəfindən maliyyələşdirilir. Buna baxmayaraq, müəlliflər müzakirələrə açıqdırlar və məqalələr də sanballı jurnallarda dərc olunur.

Növbəti addım isə əsl ictimai tualetlərdə aparılmalıdır, nəinki laboratoriyada. Həmçinin, insanların seçimləri də nəzərə alınmalıdır. İnsanların əllərini qurutması uğrunda atılan istənilən uğurlu üsul təqdirəlayiqdir.

**Su qaynadılıbsa, 12 saatdan çox saxlanıla bilməz**

**Su qəbulu ilə bağlı olan bəzi həkim tövsiyələrini sizə təqdim edirik:**

- Həkimlərin fikrincə, ən yaxşı seçim dükanlarda plastik (və ya şüşə) butulkalarda satılan içməli sudur (mineral sulardan söhbət getmir).

- Krant suyu mütləq qaynadılmalıdır.

- Bulaq suyunu da mütləq qaynatmaq lazımdır. El arasında bulaq suyu çox faydalı, hətta müalicəvi sayılır. Lakin belə suda mikroblar və ziyanlı maddələr ola bilər.

- Qaynanmış suyu 12 saatdan çox saxlamaq olmaz.

- Plastik butulkada olan suyu qazın yanında və günün altında saxlamaq olmaz. Butulka qızdıqda suya ziyanlı maddələr buraxır.

- Mineral suların qəbuluna diqqət yetirmək lazımdır. Butulkanın üzərində olan yazıları oxuyun. 1 l suda 5 qr-dan artıq mineral maddə varsa, belə suyu yalnız həkimlə məsləhətləşdikdən sonra qəbul etmək olar. Əks halda, bu, böyrəklərdə daşların əmələ gəlməsinə və digər pozulmalara gətirib çıxarda bilər.

**Suyu bu standartlarla yoxlayırlar...**

**“Azərsu” ASC-nin web-saytında əhaliyə verilən suyun keyfiyyəti ilə bağlı standartlar bölümündə qeyd olunur:** “Azərbaycanda istehlakçılara verilən içməli suyun keyfiyyət göstəriciləri MDB ölkələrinin birgə qəbul etdiyi Dövlətlərarası Standarta (DÜST 2874-82) uyğun təyin edilir. Həmin standarta müvafiq olaraq içməli suyun 35-dən çox - orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji, parazitoloji, radioloji göstəricilər öyrənilir. Hazırda mənbələrdən götürülən sular "İçməli su" standartına cavab verən səviyyədə emal olunaraq istehlakçıların istifadəsinə verilir. Gələcəkdə “Azərsu” ASC-nin emal etdiyi içməli suyun keyfiyyət göstəricilərinin beynəlxalq standartların (Ümumdünya Səhiyyə Təşkilatı, Avropa İttifaqı) tələblərinə uyğunlaşdırılması nəzərdə tutulur. Ümumdünya Səhiyyə Təşkilatının qəbul etdiyi standartlar üzrə içməli suyun 50-dən artıq, Avropa İttifaqı standartları üzrə isə 75-dən çox parametri təyin edilir".

ASC-nin saytının keyfiyyətə nəzarət bölümündə yazılır ki, “Abşeron yarımadasına verilən içməli suyun keyfiyyətinə mənbələrdən başlayaraq istifadəçiyə çatdırılana qədər müxtəlif mərhələlərdə periodik nəzarət olunur. İçməli suyun keyfiyyətinə nəzarət su mənbələrində aparılan laborator analizlərlə başlanır. İçməli su şəbəkəyə verilməzdən əvvəl mütəxəssislər tərəfindən ciddi şəkildə analiz olunur və nəticələr Mərkəzi Laboratoriyada qeydiyyata alınır. Bakı şəhəri və Abşeron yarımadası üzrə 2000-ə yaxın nöqtədən (mərkəzi və məhəllədaxili anbarlar, məktəblər, bağçalar, xəstəxanalar, ictimai iaşə obyektləri) götürülür. Mərkəzləşmiş su təchizatı sistemində epidemioloji dövlət nəzarətini Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi yerinə yetirir. Su nümunələrinin analizlərinin nəticələri qeyri-məqbul hesab edildikdə "Azərsu" ASC-nin müvafiq şöbəsinə məlumat verilir və içməli suyun verilməsi dayandırılır. İçməli suyun keyfiyyətinə xələl gətirəcək səbəblər aradan qaldırılır. Yenidən dezinfeksiya və təmizlənmə işləri aparıldıqdan sonra içməli suyun bir daha analizi aparılır. Yalnız analizlərin nəticələri müsbət olduğu halda içməli suyun şəbəkəyə verilməsi bərpa olunur".

**Rəsmi açıqlamalar və statistika budur. Hansına nə qədər inanaq... bunu hər kəs öz meyarı ilə müəyyənləşdirir. Amma bu gün Azərbaycan əhalisi içməli suyu pulla alırsa, demək ki, bizə verilən sudan şübhəmiz böyükdür.**

**❑ Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 272 (7161) 19 dekabr 2018



## Havası çatışmırdı, təyyarənin pəncərəsini açdı

Çində yayımlanan "South Chine Morning Post" qəzetinin xəbərinə görə, Hangzhou şəhərindən Çendguya uçuşa hazırlaşan "Xiamen" hava yolu şirkətinə aid bir təyyarədə qəza çıxış qapısının açılması ilə sərnişinlər ciddi panikaya düşüblər. Təyyarə havaya qalxmaq istəyəndə yaşanan bu hadisənin səbəbkarı isə sərnişinlərdən biri olub. Bəzi sərnişinlər gördüklərini sosial mediada paylaşmaq üçün cib telefonları ilə baş verənləri çəkiblər. Bu şəkli paylaşan sərnişinlərdən biri isə aşağıdakıları yazıb: "Bir sərnişinin qəza qapısını açdığını ilk dəfə idi ki, görürdüm. Bizə dedi ki, sadəcə, təmiz hava almaq istəyir... Ümid edirəm, uçuşumuz çox da təxirə salınmayacaq".

Hər hansı bir zərər olmadığı üçün hava yolu şirkəti sərnişin haqda cəza tədbiri görməyəcək. Çünki bu, onun ilk uçuşu olub və etdiyi hərəkət də hər hansı itkiyə, problemə səbəb olmayıb.

# Vergi ödəməmək üçün ağlına bu gəldi



Dublinin 85 yaşlı sakini Mett öz dostu ilə eynicinsli nikaha girməyə qərar verib. O, bunu gələcəkdə mirasından vergi ödəməmək üçün edib. Bu haqda lenta.ru saytı "The Irish Times"a istinadən yazıb. Mettin gələcək əri Maykl Osallivan deyib ki, onlar bir-birini 30 ildir ki, tanıyırlar və indi o, yaşlı dostunun qayğısına qalır. Dostluqlarının müəyyən mərhələsində Mett dostuna öz evini miras qoymaq istəyib. Amma yerli qanunvericiliyə görə, o, bu halda 33 faiz vergi ödəməlidir.

Dostlar qanunları diqqətlə incələyəndə isə ortaya çıxardılar ki, ancaq ər-arvad və ya vətəndaş nikahında olanlar vergilərdən azad edilə bilirlər. İrlandiya müvafiq münasibətləri 2015-ci ilin noyabrında qanuniləşdirib. Hər iki kişi özlərinin cinsi oryentasiyalarının şübhəli olmadığını bəyan etsələr də, vergidən azad olmaq üçün bunu ideal vasitə sayırlar. Toy isə 22 dekabra təyin edilib.

# Hamiləliyinin 8-ci ayında hamilə olduğunu öyrəndi



**Britaniyanın Klakton-on-Si şəhər sakini doğumdan bir ay öncə hamiləliyindən xəbər tutub. Bu barədə "The Sun" nəşri xəbər verib. Şafran Heferin 17 yaşı var və o, özünü aylardan zəif, halsız hiss edirdi. Həkimlər ona davamlı vitaminlər yazsalar da, onun vəziyyəti gündən-günə pisləşirdi. Bir neçə ay ərzində qız o qədər arıqladı ki, M ölçüsündən S ölçüsünə qədər düşdü. Menustrasiyanın kəsilməsini isə qız hormonal preparatların tətbiqi ilə əlaqələndirirdi.**

"Mən özümün qəfil şəkildə salata, çiyələyə və dondurmaya olan ehtirasımı onunla izah edirdim ki, mağazalarda onların satışı ilə bağlı tez-tez aksiyalar təşkil edilir". Bunu deyən qız adi həyat tərzi keçirir, daim gəzir, idman zalına gedir və günəş vannası qəbul edirdi. Qızın hamiləliyini isə anası onun qarnında piqment ləkələr görəndə kəşf etdi. Heffer hamiləlik testi aldı və orada da onun hamilə olduğu üzə çıxdı.

Qız həkimə gedəndə ona bildirildi ki, uşaq kürəyini anasının qarnına tərəf çevirdiyi üçün ölçüləri tam şəkildə bəlli olmurmuş. Amma həkim dölü çevirəndən sonra uşağın ölçüsü qəfil şəkildə anasının qarnında böyüdü. Növbəti gün isə o, ilk dəfə bətnindəki dölün necə tərpəndiyini hiss edib.

Heffer iki həftə boyunca bu fakta necə yanaşacağını bilməyib, özünü sarsılmış hiss edib. Amma nəticədə belə qərara gəlib ki, güclüdür və hər şeyin öhdəsindən gələ bilər. "Mən güclüyəm və bunu bacaracam" - belə deyib.

Altı həftə sonra qız 3.6 kilo çəkisi olan uşağını dünyaya gətirib və onu Oskar adlandırıb. Hazırda onun 1.5 yaşı var və britaniyalı bilir ki, ona ana olmaq çox xoşdur.

## Qoroskop




**QOÇ** - Əgər kənar təsirlərə uymasanız, heç bir qanqaraçılıqla üzləşməyəcəksiniz. Çalışın ki, öz ideya və fikirlərinizdə qətiyyətli olasınız. Mənasız səbəbdən özünüzü gərginliyə salmayın.

**BUĞA** - İlin-günün bu vaxtında Ay da bürcünüzdə qərar tutmağa vaxt tapdı. Neyləmək olar, kosmosla kosmosluq etmək olmaz ki?! Heç olmasa ciddi işlərinizi bu günlük təxirə salmağa çalışın.

**ƏKİZLƏR** - Astroloji bilgilərə əsaslansaq, bu təqvim sizin üçün müəyyən gərginliklərlə müşahidə olunacaq. Daha çox ailə üzvlərinizlə münasibətləri tənzimləməyə çalışın. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Çox güman ki, bu gün boş vaxtınız çox olacaq. Belə olan təqdirdə isə mədəni istirahətə yol vermək lazım gəlir. Bu səbəbdən də ürəyinizcə olan ünvanlarda qonaq sifətilə iştirak etməlisiniz.

**ŞİR** - Sağlamlığınıza xüsusi diqqət yetirməklə gözlənilən təhlükəni aradan qaldıra bilərsiniz. Sonrakı saatları isə bütünlüklə sevgiyə həsr edin. Pulla bağlı sövdələşmələri təxirə salın.

**QIZ** - Son vaxtlar yamanca qərarsız olmusunuz. Bir az təmkinli olun. Hadisələri qabaqlamağa çalışmayın. Yalnız gündəlik qayğılarınızla məşğul olun. Başqalarının işinə müdaxilə etməyin.

**TƏRƏZİ** - Risk etməyə dəyər. Ulduzlar tərəfinizdə durduğundan qəlbinizdə çövlan edən ideyaları qabartmalı və həllini sürətləndirməlisiniz. Heç nədən çəkinməyin. Qabiliyyətinizdən bəhrələnin.

**ƏQRƏB** - Yəqin bilməmiş deyilsiniz ki, həftənin bu günü qazanmaq üçün sizə o qədər də düşərli deyil. Odur ki, bu istiqamətdə əziyyətə qatlaşmağa dəyməz. Əsas enerjinizi fəaliyyətə yönəldin.

**OXATAN** - İşlərinizin çox olması sizi bərk yoracaq. Amma bunun xeyirli nəticə verəcəyini düşünüb əzmkarlığınızı artırmalısınız. Axşama yaxın maraqlı bir hadisə ilə rastlaşacaqsınız.

**OĞLAQ** - Günün ümumi mənzərəsini qənaətbəxş hesab etmək olar. Hətta ətrafınızda olanlardan bəziləri çöhrənizə təbəssüm də qata bilər. Ötən dövrlərdə buraxdığınız səhvlərdən nəticə çıxarın.

**SUTÖKƏN** - Olduqca aktiv gündür. Ürəyinizcə olan çoxsaylı hadisələrlə rastlaşmaq ehtimalınız var. Sevindirici xəbərlər, ümidli gələcək haqqında düşüncələr yolunuzu gözləyir.

**BALIQLAR** - Günün birinci yarısını süst şəkildə başa vursanız da, sonrakı müddətdə ovqatınıza müsbət təsir edə biləcək olaylarla qarşılaşacaqsınız. Aldığınız təkliflərə həssas yanaşın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ovçunu həbs etdilər və hər gün "Bembi"yə baxma cəzası verdilər



**Amerikalı Deyvid Berri yüzlərlə maralı qanunsuz öldürdüyü üçün bir il azadlıqdan məhrum etmə cəzasına məhkum olunub. Bu müddət ərzində o, ayda ən azı bir dəfə "Bembi" multfilminə baxmaq zorundadır. Berri ilə bağlı olayı Missuri ştatı tarixindəki nadir hadisələrdən biri adlandırıblar. Qeyd edilir ki, bu şəxs marallların ancaq başından istifadə edir, bədənini isə meşəyə atırmış.**

Polis eyni zamanda bu şəxsin üç qohumunu və bir dostunu saxlayıb. Onlar da bu prosesdə iştirak etdikləri üçün 51 min dollar məbləğində cərimə ödəyiblər. Disney cizgi filmi olan "Bembi" 1942-ci ildə çəkilib. Cizgi film anası ovçular tərəfindən öldürülən maralın hekayəsindən bəhs edir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100